Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 10 oktyabr 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 10 OKTYABR 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

## RƏSMİ MƏLUMAT


Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə, iqtisadi inkişafa böyük töhfədir ................................5
Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib.................................................................................9


## ƏDLİYYƏ NAZİRLİYİNDƏ


Azərbaycan və Latviya arasında hüquqi əməkdaşlıq genişlənir............11
Ədliyyə naziri Tərtər rayonunda vətəndaşları qəbul edib......................14
Qəbələ Rayon Məhkəməsinin yeni müasir inzibati binası istifadəyə verilib .......................................................................15
Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib .......................................17


## ƏDALƏT MÜHAKİMƏSİ


Məhkəmə-Hüquq Şurasının məlumatı...................................................18
Azərbaycan Avropa Şurasının ”Ədliyyənin Kristal Tərəzisi” müsabiqəsinin mükafatçısı olub .........................................................19
İstanbulda Hüquq təhsili üzrə Beynəlxalq Konqres keçirilib..................20


## MƏLUMATLAR, ELANLAR...


Bir sıra rayonlarda vakant olan notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı noyabr ayının 25-də keçiriləcək ............................................................................................21
Məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edilir ..............................................................21
Ədliyyə Akademiyasının məlumatları ....................................................22
Beynəlxalq qurumların təmsilçiləri Şəki regional ədliyyə idarəsində olublar ....................................................................................................24
Bələdiyyələrin hüquqi maarifləndirilməsi diqqət mərkəzindədir............24


## YENİ QANUNLAR, FƏRMANLAR...


“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ..................................................................................................25
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ..................................................................................................39
“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ..................................................................................................41
“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu..................................................42










**KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARLARI**
"İcra haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı........................................43

# Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə, iqtisadi inkişafa böyük töhfədir

**Oktyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə reallaşan və Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təntənəli açılışı olub.**



Bu münasibətlə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilmiş mərasimdə dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri iştirak ediblər.

Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin açılışı münasibətilə xalqımızı təbrik edib, tarixi, strateji əhəmiyyətli layihə olan bu dəmir yolunun Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olduğunu, gələcəkdə böyük həcmdə yüklərin daşınacağı BTQ dəmir yolunun Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrildiyini vurğulayıb. Bu layihə ölkələrimiz arasındakı əməkdaşlığın dərinləşməsinə, sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək, ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaqdır.

BTQ dəmir yolunun tikintisinin Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı dostluğun, qardaşlığın təzahürü olduğunu söyləyən Prezident İlham Əliyev ölkələrimizin bundan əvvəl də Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri kimi iri layihələri birgə reallaşdırdığını, "Cənub Qaz Dəhlizi" layihəsini icra etdiyini bildirib və bütün bu layihələrin Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsinə təminat verdiyini qeyd edib. Bu dəmir yolu layihəsinə Orta Asiya ölkələrinin, o cümlədən





potensialının artırılmasına, infrastrukturun və turizmin inkişafına, yeni iş yerlərinin yaradılmasına xidmət edəcəyini qeyd edib.

Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayev çıxışında son illər ölkəsində tranzit və logistik layihələrlə bağlı görülən tədbirlərdən, Transxəzər logistik layihəsinin uğurla icra olunmasından bəhs edərək Türkiyəyə və Şərqi Avropaya, Aralıq dənizinə çıxışı təmin edən BTQ dəmir yolunun Orta Asiyadan Avropaya yüklərin daşınmasında ən qısa yol olduğunu diqqətə çatdırıb, digər tərəfdən bu yolun Çindən gələn yüklərin Avropa bazarlarına çatdırılmasında vaxt itkisini azaldacağını bildirib.

Qazaxıstanın böyük maraq göstərdiyini deyən dövlətimizin başçısı Avropa üçün böyük əhəmiyyəti olan bu yolun gələcəkdə Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunması istiqamətində işlərin getdiyini bildirib.

Çıxışında nəqliyyat sektoruna çox böyük önəm verən Azərbaycanda son illər 11 min kilometr avtomobil yolunun çəkildiyini, 6 beynəlxalq hava limanının istifadəyə verildiyini, müasir dəniz donanmasının yaradıldığını, gəmiqayırma zavodunun tikildiyini, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başladığını söyləyən Prezident İlham Əliyev bu infrastrukturun həm ölkəmiz, həm də bölgə və dünya üçün böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

BTQ dəmir yolu layihəsinin ölkələrimizin iqtisadi imkanlarını artıracağını bir daha vurğulayan dövlətimizin başçısı onun Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına reallaşdığını bildirib.

Sonra Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin ölkələrimiz arasında iqtisadi və ticari əlaqələrin möhkəmlənməsinə yönəldiyini, Avropa ilə Asiyanı birləşdirən körpü olaraq unikal imkanlar yaratdığını vurğulayıb, vətəndaşlarımızın rifahına, ölkələrimizin tranzit və logistik

Çıxış edən Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılmasının tarixi Böyük İpək Yolunun bərpası istiqamətində görülən işlərə çox qiymətli töhfə olduğunu söyləyib, Özbəkistanın öz yüklərini bu dəmir yolu ilə daşımağa maraq göstərdiyini diqqətə çatdırıb, bu layihənin ticarət-iqtisadi münasibətlərimizin möhkəmlənməsinə, ölkələrimizin tranzit və iqtisadi potensialının əhəmiyyətli dərəcədə artırılmasına imkan yaradacağını, bütövlükdə bütün regionun tərəqqisinə təkan verəcəyini vurğulayıb.

Sonra Türkiyənin Baş naziri Binəli Yıldırımın müraciəti səsləndirilib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Asiyanı, Avropanı və Afrikanı bir-biri ilə birləşdirmək məqsədilə başladılan yeni "İpək Yolu"





təşəbbüsünün vəsilələrindən biri olan Bakı-Tbilisi-Qars dəmir yolunda ilk səfərin reallaşması ilə "Orta dəhliz" layihəsinin ən önəmli mərhələsinin başa çatdırıldığını vurğulayıb, qətiyyətimizin və uzaqgörənliyimizin əsəri olan bu layihənin hamımızın birgə uğuru olduğunu söyləyib. Bu dəmir yolunun tam gücü ilə işə düşməsi üçün Türkiyədə də bir çox işlərin görüldüyünü, "Marmaray" sürətli qatar xətlərinin çəkildiyini deyən Prezident Rəcəb Tayyib Ərdoğan zaman və qısa yol baxımından mühüm əhəmiyyəti olan BTQ dəmir yolunun faydasının iqtisadi mənfəətlə yekunlaşmadığını, onun regionda həm də sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət etdiyini bildirib.

***

Çıxışlardan sonra Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə bağlı qısa film nümayiş olunub. Filmdə layihənin icrasına başlandığı vaxtdan görülən işlər, onun texniki-iqtisadi əhəmiyyəti, region və dünya üçün önəmi haqqında danışılıb.

Sonra dövlət və hökumət başçıları Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çivlərini vurub və yoldəyişən qurğunu işə salıblar. Bununla da Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edən ilk yük qatarı yola salınıb. Dövlət və hökumət başçıları memorial daşın üzərindən örtüyü götürüb və birgə foto çəkdiriblər.

Sonda dövlət və hökumət başçıları qatarla açılış mərasiminin keçirildiyi Ələt limanından Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Ələt dəmir yolu stansiyasına yola düşüblər.

***

Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. BTQ dəmir yolunun tikintisinə dair Saziş 2007-ci il fevralın 7-də Tbilisidə imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir. Yolun 79 kilometri isə Türkiyə ərazisindədir.



Proqnozlara görə, Bakı-Tbilisi-Qars dəmir yolu ilə üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə ildə 3 milyon sərnişin və 17 milyon ton yük daşınacaq. Bu dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkün olacaq. Bu isə regionda turizmin inkişafına güclü təsir göstərəcək. Bütün






bunlar Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını, sürət və vaxt tezliyini aydın göstərir. Belə ki, bu yol istifadəyə veriləndən sonra mövcud yükdaşımalarla müqayisədə zaman fərqi iki dəfəyədək azalacaq.

Müstəqillik tariximizin möhtəşəm layihələrindən birinin reallaşmasına rəhbərlik etməklə Azərbaycan növbəti dəfə təsdiqlədi ki, regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər. Bunu Bakı-Tbilisi-Qars dəmir yolunun geosiyasi və geoiqtisadi səmərəsinə nəzər saldıqda da görürük. Belə ki, bu dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfədir və onun imkanları sayəsində Azərbaycan, Gürcüstan və Türkiyə mühüm tranzit qovşağına çevrilir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin perspektivlərindən danışarkən qeyd etməliyik ki, Asiyada yüklərin əsas yaranış ölkəsi olan Çin artıq bu xəttə böyük maraq göstərir. Bu layihə Qazaxıstan üçün də səmərəlidir. Çünki bu yol Türkiyənin Mersin limanı vasitəsilə Aralıq dənizi regionuna çıxışı təmin edir. Odur ki, bu dəmir yolu xətti Transavropa və Transasiya dəmir yolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantını tamamlayır, bununla da Avropa ilə Asiya arasında daşımalarda yekun bənd kimi çıxış edir. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, bu coğrafiyada yerləşən türkdilli ölkələrin inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ, bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaq.

Bununla da Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası xüsusi strateji əhəmiyyət daşıyır. Çünki Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amildir. Bu, həm də layihənin icrasında nadir əməkdaşlıq formatı göstərən üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əlaqələrin strateji təzahürünü bütün dünyaya nümayiş etdirir. Ən əsası isə bu dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir. Bu töhfənin təməlində Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açaraq bu ilin doqquz ayında ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyini, iqtisadi göstəricilərimizin çox müsbət olduğunu vurğulayıb, qeyri-neft iqtisadiyyatımızın 2,5 faiz artdığını qeyd edərək bildirib ki, 9 ayda qeyri-neft sənayesində artım 3,1 faiz, kənd təsərrüfatında 2,8 faiz təşkil edib, xarici ticarət dövriyyəsi 7 faiz artıb, Azərbaycanın valyuta ehtiyatları artaraq hazırda bu rəqəm 42 milyard dollar səviyyəsindədir.

Həmçinin, 9 ayda yeni iş yerlərinin yaradılması prosesinin uğurla getdiyi, 171 mini daimi olmaqla 226 min yeni iş yerinin yaradıldığı diqqətə çatdırılıb. Ötən dövrdə əsas infrastruktur, o cümlədən yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələrin uğurlu icra olunduğu qeyd edilərək bu cür tədbirlərin həyata keçirilməsinin ümumi iqtisadi tərəqqiyə, regionların inkişafına təkan verdiyi vurğulanıb.

Bu ilin əvvəlindən 100-ə yaxın məktəb, 27 tibb ocağı tikilib və təmir edilib, məcburi köçkünlərin

problemləri daim diqqət mərkəzində saxlanılıb. Cocuq Mərcanlı kəndinin bərpasını və orada sosial infrastrukturun yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı cari ildə minlərlə ailənin yeni evlərlə, mənzillərlə təmin olunacağını, bu prosesin gələn il də davam etdiriləcəyini, indiyədək 250 mindən çox məcburi köçkünün dövlət tərəfindən mənzillərlə təmin edildiyini bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, bu il idman sahəsində də böyük uğurlar qazanılıb, İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə təşkil olunub. Cari ildə ölkəmizin beynəlxalq arenada mövqeləri daha da möhkəmlənib və bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş ölkə kimi tanınır. 9 ayda xarici ölkələrə 14 dəfə səfər etdiyini, 10-dan çox dövlət və hökumət başçısının isə Azərbaycana səfərini qeyd edən dövlətimizin başçısı bu səfərlərin hər birinin ölkəmiz üçün faydalı olduğunu vurğulayıb.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan ölkə rəhbəri bu məsələdə mövqeyimizin dəyişməz qaldığını, ərazi bütövlüyümüzün danışıqlar predmeti olmadığını bildirib. Qeyd edib ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək. Ermənistan danışıqlar prosesini pozmağa çalışsa da, buna nail ola bilməyib.

Dövlətimizin başçısı, həmçinin neft-qaz sektorundakı əlamətdar hadisələrdən bəhs edərək ötən ay neft sektorunda "Azəri-Çıraq-Günəşli" yatağının gələcəkdə işlənilməsi ilə bağlı yeni kontraktın imzalandığını, "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı işlərin uğurla getdiyini bildirib, yaxın vaxtlarda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışının olacağını vurğulayaraq Azərbaycanın iştirak etdiyi və bir çox hallarda təşəbbüskarı olduğu layihələrin qlobal xarakter daşıdığını, bu layihələrin, bu kontraktların ölkəmizi gücləndirdiyini vurğulayıb.

Cari ilin 9 ayında ölkədə iqtisadi islahatlarla bağlı çox ciddi addımların atıldığını söyləyən Prezident İlham Əliyev strateji yol xəritələrinin icrasının, sahibkarlığın inkişafının təmin edildiyini, investisiya təşviqi mexanizminin tam işə düşdüyünü bildirib. Qeyd olunub ki, 200-dən çox investisiya təşviqi sənədi verilmişdir ki, bunun nəticəsində ölkəmizə özəl sektor tərəfindən 1,7 milyard manat həcmində investisiya qoyuluşu cəlb edilib.

"Bu il Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacaq", - deyən ölkə başçısı bildirib ki, 140 ölkə arasında rəqabətqabiliyyətliliyi əks etdirən Davos Dünya İqtisadi Forumunun hesabatına görə Azərbaycan iki pillə irəliləyərək 37-ci yerdən 35-ci yerə qalxıb və MDB məkanında liderliyini qoruyur.

Sonra Təhsil naziri Mikayıl Cabbarov, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli bu ilin doqquz ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

Müşavirəyə yekun vuran Prezident İlham Əliyev ilin sonunadək Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlərin həllini tapacağını bildirib, ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə, iş adamlarına verilən güzəştli kreditlərə toxunaraq qeyd edib ki, Sahibkarlığa Kömək Milli Fondu ilin sonuna qədər nəzərdə tutulmuş kreditləşməni tam həcmdə təmin etməlidir.

Həmçinin, yol infrastrukturu ilə bağlı çox mühüm layihələrin uğurla icra olunduğu, bu layihələrin bölgələrimizin turizm sektorunun inkişafına təkan verəcəyi, gələn ildə daha çox kənd yollarının inşa ediləcəyi bildirilib. Bundan əlavə, meliorasiya məsələlərinin indi ön planda olduğunu söyləyən ölkə rəhbəri diqqətə çatdırıb ki, bu il 150 min hektar yeni sahəyə suyun verilməsi nəzərdə tutulub, gələn il isə 100 min hektar sahəyə su verilməlidir ki, bu da kənd təsərrüfatının sürətli inkişafını təmin edəcək.

Prezident İlham Əliyev fermerlərin kənd təsərrüfatı texnikaları ilə təmin edilməsi istiqamətində də mühüm addımların atıldığını, bölgələrdə logistik mərkəzlərin tikildiyini, hazırda 400 hektardan çox sahədə yeni, müasir istixana komplekslərinin salındığını bildirib. Bölgələrdə müasir sənaye zonalarının yaradıldığını deyən dövlətimizin başçısı ölkəmizin ixrac potensialını təbliğ etmək üçün sərgilərdə, beynəlxalq tədbirlərdə fəal iştirak etməyin əhəmiyyətinə toxunub.

Eyni zamanda, tikinti sektorunda canlanmanın olduğu, hazırda paytaxtda 95 yaşayış binasının tikildiyi, yararsız binaların yerində yeni müasir yaşayış komplekslərinin inşa olunduğu qeyd olunub, həmçinin "ASAN xidmət" mərkəzlərinin tikintisinin uğurla davam etdirildiyi vurğulanaraq "ABAD mərkəz"lərin də yaradılmasının əhəmiyyətinə toxunulub, turizm sahəsində sürətli inkişafın olduğu bildirilib.

Ölkəmizin ictimai-siyasi vəziyyətinin də bir çox ölkələr üçün nümunə olduğunu söyləyən dövlətimizin başçısı bu ilin sonuna qədər, bundan sonrakı illərdə də ölkəmizin uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

# Azərbaycan və Latviya arasında hüquqi əməkdaşlıq genişlənir



Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət



Şəhidlərin xatirəsinə ehtiram



Ədliyyə Nazirliyində görüş

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi hüquqi islahatlar çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilir, 30-dan artıq xarici ölkələrin, o cümlədən Avropa İttifaqı dövlətlərinin Ədliyyə nazirlikləri ilə ikitərəfli sazişlər imzalanaraq səmərəli əməkdaşlıq edilir, nümayəndə heyətlərinin mübadiləsi aparılır, qarşılıqlı müsbət təcrübələr öyrənilir.**

Cari il Latviya Ədliyyə Nazirliyinin yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə, ötən ay isə Azərbaycanın ədliyyə nazirinin nümayəndə heyəti ilə Latviyaya səfəri və iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması hüquqi sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə böyük təkan verib və artıq həmin sənəd ölkə Prezidentinin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə təsdiq olunub.

Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs ölkəmizdə aparılan ədliyyə və məhkəmə islahatları ilə tanış olmaq barədə niyyətini bildirərək Memorandumun implementasiyası çərçivəsində bu məqsədlə

oktyabrın 18-də nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlib.

18 oktyabr - Müstəqillik gününə təsadüf edən səfər zamanı latviyalı nazir əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər çiçəklər düzülüb. Qonaq həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək Əbədi məşəl abidəsi önünə əklil qoyub.

Sonra Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Latviyanın ədliyyə naziri Dzintars Rasnaçsın görüşü keçirilib.

Görüşdə Azərbaycan-Latviya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından danışılaraq dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin möhkəmlənməsində xüsusi rolu vurğulanıb, hüquqi sahədə qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib.

Nazir F.Məmmədov respublikamızın müstəqillik illərində keçdiyi inkişaf yolundan bəhs edərək ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə qazanılan nailiyyətlər, habelə son illər ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə görülən tədbirlər barədə məlumat verib.

Ölkəmiz üçün əlamətdar tarixi gündə Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edən latviyalı nazir Müstəqillik günü münasibətilə təbriklərini çatdırıb, ötən dövrdə iki dövlət arasında qurulmuş münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini söyləyib. Nazir D.Rasnaçs respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib. Qonaq, həmçinin öz ölkəsinin məhkəmə-hüquq sistemi barədə məlumat verərək Azərbaycanda bu sahədə aparılan islahatları maraqla qarşılayıb, hüquqi sahədə əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Görüşdə hər iki ölkənin ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin ötən ay imzalanmış Memorandum çərçivəsində inkişaf perspektivləri müzakirə olunub, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Sonra qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətini, həmçinin iki ölkə arasında hüquqi əlaqələri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən xüsusi jurnallar və əyani vəsaitlər təqdim edilib.

## ◆ Ali Məhkəmədə görüş



**Həmin gün Latviyanın ədliyyə naziri Dzintars Rasnaçsın başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayev ilə görüşüb.**

Azərbaycanın məhkəmə-hüquq sistemi barədə məlumat verən Ali Məhkəmənin sədri məhkəmə islahatlarının səmərəliliyinin Ali Məhkəmənin strukturunda və fəaliyyətində əksini tapdığını, Ali Məhkəmədə beynəlxalq hüquqi aktlara, xüsusən də "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna istinad olunduğunu, hakimlərin Avropada ən şəffaf seçimini vurğulayıb, Azərbaycan və Latviya ədliyyə və məhkəmə orqan-

ları arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

Latviyanın ədliyyə naziri ölkəmizin müasir tələblərə cavab verən qanunvericilik bazasına xüsusi maraq göstərib. O, Azərbaycan ilə Latviya arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirib və bu münasibətlərin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə tarixi muzeyinə baxıblar.

Latviyanın ədliyyə naziri muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

## ◆ Heydər Əliyev Mərkəzi ilə tanışlıq





**Səfər zamanı Latviya nümayəndə heyəti Heydər Əliyev Mərkəzində olub.**

Qonaqlara müasir Bakının rəmzinə çevrilmiş Mərkəzin fəaliyyəti haqqında məlumat verilib. Bildirilib ki, Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin tədqiqi və təbliği, Azərbaycanın tarixi və mədəniyyətinin, milli mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması, eləcə də dünya mədəniyyəti nümunələrinin ölkəmizdə tanıdılması istiqamətində fəaliyyət göstərir.

Qeyd edilib ki, Mərkəzdəki Heydər Əliyev Muzeyində toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Ümummilli liderin həyat yolu haqqında maraqlı faktlar foto və videomateriallar vasitəsilə təqdim olunur.

Qonaqlar Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan xoş təəssüratla ayrılıblar.

## ◆ Bölgələrə səfər





Şəki Məhkəmə Kompleksi ilə tanışlıq

**Latviyanın ədliyyə naziri Dzintars Rasnaçsın rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin respublikamızın bölgələrində olub.**

Qonaqlar səfər zamanı yerli və regional ədliyyə qurumlarının fəaliyyəti, müasir məhkəmə infras-

trukturu və informasiya texnologiyalarının tətbiqi, eləcə də Azərbaycan brendi olan və ədliyyənin də geniş xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzinin vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti ilə tanış olub, səmərəli təcrübə mübadiləsi aparılıb.





Şəki penitensiar kompleksi ilə tanışlıq






Qəbələ regional “ASAN xidmət” mərkəzi ilə tanışlıq

# Ədliyyə naziri Tərtər rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq oktyabrın 6-da ədliyyə naziri Fikrət Məmmədov Tərtər rayonu Heydər Əliyev Mərkəzində Tərtər, Bərdə və Ağdam, eləcə də digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin



aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakim və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir respublikamızın, o cümlədən regionların sosial-iqtisadi inkişafı üzrə həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb, ədliyyə və məhkəmə islahatlarına toxunaraq bu ərəfədə Qəbələdə rayon məhkəməsinin yeni müasir binasının istifadəyə verildiyini söyləyib. Ədliyyə işçiləri ilə keçirilən müşavirədə ölkə Prezidentinin cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyəti vurğulanıb, ədliyyə fəaliyyətində şəffaflığın, məhkəmə qərarlarının vaxtında və dürüst icrasının təmin olunmasının vacibliyi, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub, aidiyyəti tövsiyə və tapşırıqlar verilib.

Tərtər Hərbi Məhkəməsində bölgə hakimlərinin iştirakı ilə keçirilən müşavirədə təmas xəttində yerləşən bu məhkəmənin xüsusi əhəmiyyəti, məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf şəxslərin təmsil olunmasının zəruriliyi vurğulanıb, hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması üzrə işlərin davam etdirildiyi qeyd olunub, neqativ halların qarşısının qətiyyətlə alınması, etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılmasının vacibliyi bildirilib.

# Qəbələ Rayon Məhkəməsinin yeni müasir inzibati binası istifadəyə verilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə aparılan islahatlar nəticəsində məhkəmə sistemi təkmilləşdirilib, yeni məhkəmələr təsis olunub, hakimlərin Avropada ən şəffaf seçim qaydaları müəyyən edilib, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun infrastrukturunun müasirləşdirilməsi üzrə xeyli işlər görülüb.**



Bununla bağlı dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində paytaxtda və bölgələrdə 13 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib, hazırda isə 8 məhkəmə üçün bina və komplekslərin intensiv inşası aparılır. Bir çox məhkəmə bina və komplekslərin açılışlarında dövlətimizin başçısı şəxsən iştirak edib, müvafiq tövsiyə və tapşırıqlarını verib.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq oktyabrın 5-də Qəbələ rayonunda müasir tələblərə uyğun inşa olunmuş yeni məhkəmə binası-





nın açılışı olub.



Mərasimdən əvvəl ümummilli lider Heydər Əliyevin Qəbələ rayonunda abidəsi ziyarət olunaraq, xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Milli Məclisin deputatı, Parlamentin Regional Məsələlər Komitəsinin sədr müavini Fəttah Heydərov, bölgənin hakimləri, ədliyyə, prokurorluq, digər hüquq-mühafizə orqanlarının işçiləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Bina ilə tanışlıq zamanı bildirilib ki, ümumi sahəsi 2.900 $m^2$, iki mərtəbədən və zirzəmi qatından ibarət olan məhkəmə binası, digər yeni tikilmiş məhkəmə binalarında olduğu kimi, ictimai və inzibati zonalara bölünməklə müasir İKT-lə təchiz olunub, bu zaman ölkə Prezidentinin tapşırığına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur yaradılıb, o cümlədən videokonfransların, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarə olunmasına xidmət edən və audio-video yazılışları aparan "Femida" sistemi və digər avadanlıqlar quraşdırılıb. Burada konfrans və iclas zalları, arxiv və digər xidməti otaqlar mövcuddur. Həmçinin, təqsirləndirilən şəxslərin təhlükəsiz daşınması və saxlanması üçün hər cür şərait yaradılıb.

BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait vardır.

Mərasimdə çıxış edən ədliyyə naziri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi tərəqqisinin təmin olunduğunu vurğulayıb, ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verib.

Bildirilib ki, Ümummilli Liderin humanizm siyasəti uğurla davam olunaraq möhtərəm Prezidentimizin ötən dövrdə imzaladığı sərəncamlarla 3.800-dən çox şəxs əfv olunub, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı 40 mindən çox şəxsi əhatə edib.

Həmçinin, dövlət başçısının təşəbbüsü ilə cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına səbəb olub.

Ölkə Prezidentinin humanist siyasətinin təzahürü olaraq cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətinə toxunan nazir bu mühüm sənədin icrası üzrə görülən konkret işlərdən bəhs edib, Sərəncamın qəbulundan sonra istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayının 25 faizə qədər azaldığını, həbsdən azad edilmiş insanların sayının isə xeyli artdığını vurğulayıb.

Sərəncamla məhkəmələrin üzərinə mühüm vəzifələrin düşdüyü, insan haqlarının, xüsusilə azadlıq

hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyəti diqqətə çatdırılaraq, bu mənada həbs qətimkan tədbirinin seçilməsinə həssas yanaşılmanın vacibliyi vurğulanıb. Eyni zamanda, məhkəmə fəaliyyətində şəffaflığın artırılması, qərarların ədalətliliyinin təmin edilməsi, vətəndaşlara layiqli xidmət göstərilməsi, qərəzli yanaşmanın, korrupsiyanın yolverilməzliyi qeyd edilib.

Nazir Qəbələ Rayon Məhkəməsinin müasir inzibati binasının istifadəyə verilməsinin məhkəmə sistemində aparılan islahatlara əlavə töhfə olmaqla məhkəmənin fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına xidmət edəcəyini bildirib.

Qəbələ rayon icra başçısı S.Abdullayev, millət vəkili F.Heydərov və digər çıxış edənlər regionların hərtərəfli tərəqqisinə, xüsusilə ədalət mühakiməsinin səmərəliliyinə və məhkəmə sisteminin inkişafına göstərdiyi xüsusi qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib





**Oktyabrın 31-də Ədliyyə Nazirliyi Kollegiyasının geniş iclası keçirilib.**

Tədbirdə çıxış edən nazir Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin siyasi kursunun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini, respublikamızın hərtərəfli tərəqqisini və iqtisadi rəqabətqabiliyyətliliyinə görə qabaqcıl dövlətlər sırasında qərarlaşdığını vurğulayıb. Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan dövlət və hökumət başçılarının iştirakı ilə yenicə açılışı qeyd olunaraq bildirilib ki, ölkəmizin iradəsi ilə reallaşan və dünyanın 100 böyük layihəsi sırasına daxil olan BTQ dəmir yol xəttinin işə düşməsi strateji əhəmiyyət daşımaqla regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa xüsusi töhfədir.

Kollegiyada dövlət başçısının rəhbərliyi ilə respublikamızın davamlı inkişafından, məhkəmə-hüquq sistemində aparılan islahatlardan bəhs olunub. Diqqətə çatdırılıb ki, bu sahədə ölkəmizin nailiyyətləri beynəlxalq aləmdə yüksək dəyərləndirilir və digər dövlətlərə örnək kimi tövsiyə edilir. Belə ki, bu günlərdə Azərbaycanın təqdim etdiyi "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" layihəsinin Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsində qalib gələrək ən mütərəqqi layihə kimi mükafata layiq görülməsi respublika Prezidentinin siyasi iradəsi ilə son illər həyata keçirilən çoxşaxəli islahatlara verilən növbəti qiymətdir.

İclasda ölkə başçısının cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı Sərəncamının icrası üzrə görülən işlər, o cümlədən insanların azadlıq hüququnun qorunması, alternativ cəzaların, həmçinin ictimai işlər cəzasının səmərəli tətbiqi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi qeyd edilib və bununla bağlı Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası"nın icrasının təşkili üzrə tədbirlər müəyyən olunub.

Həmçinin, məhkəmə qərarlarının icrasının yaxşılaşdırılması üzrə görülən işlərə toxunularaq vergi borcları üzrə qərarların daha səmərəli icrasına yönəlmiş ölkə Prezidentinin 2017-ci il 5 oktyabr tarixli Fərmanı ilə Ədliyyə Nazirliyinin Əsasnaməsinə edilmiş dəyişikliklər müzakirə olunub və bu

sənədin icrası ilə bağlı bir sıra təşkilati və digər aidiyyəti tədbirlərin görülməsi qərara alınıb.

Kollegiyada oktyabrın 23-də müşayiət zamanı vaqondan iki təqsirləndirilən şəxsin qaçması ilə bağlı məlumat dinlənilib, baş vermiş fövqəladə hadisə ilə əlaqədar aparılmış xidməti yoxlamanın ilkin nəticələri müzakirə edilib. Qeyd olunub ki, bununla bağlı Penitensiar xidmətin 21 rəhbər və məsul işçisi ciddi intizam məsuliyyətinə cəlb edilib, o cümlədən 15 nəfər ədliyyə orqanlarından xaric olunub və ya tutduğu vəzifədən azad edilib, 4 nəfər, o cümlədən Konvoy taborunun komandiri olmuş B.Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadəyə görə cinayət məsuliyyətinə cəlb edilərək həbs olunub. Həmçinin, hadisənin fəsadlarının aradan qaldırılması üzrə görülmüş təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində həbsdən qaçmış şəxslərdən biri tutularaq istintaq təcridxanasına qaytarılıb, digərinin axtarışı üzrə zəruri tədbirlər davam etdirilir.

Eyni zamanda, Penitensiar xidmətdə nizam-intizamın möhkəmləndirilməsi, qanunvericiliyin tələblərinə ciddi əməl edilməsi, əməliyyat-rejim və mühafizə tədbirlərinin gücləndirilməsi, tabe qurumların fəaliyyətinə təsirli nəzarətin təmin olunması, əməkdaşların məsuliyyət hissinin artırılması ilə bağlı konkret tapşırıqlar verilib.

Kollegiyada, həmçinin kadrlarla işin daha səmərəli qurulması məqsədilə Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası"ndan irəli gələn vəzifələr müzakirə edilib.

Bununla yanaşı, beynəlxalq əlaqələrin dərinləşdirilməsi üzrə tədbirlərə baxılıb. Qeyd olunub ki, cari ildə Gürcüstan, İran, Belarus, Ukrayna və Latviyanın ədliyyə nazirləri ölkəmizə, tərəfimizdən isə Əlcəzairə və Latviyaya səfərlər edilib, ədliyyə sahəsində mühüm sənədlər imzalanaraq ölkə Prezidentinin fərmanları ilə təsdiq olunub. Kollegiyada qeyd olunan beynəlxalq sənədlərin icrasından irəli gələn məsələlər müzakirə olunaraq zəruri tədbirlərin görülməsi tapşırılıb.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ-hüquqi akt layihələri müzakirə edilib, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Məhkəmə-Hüquq Şurasının məlumatı

**Oktyabrın 13-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. İclasda ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dair tapşırıqlarının icrası üzrə görülmüş işlər, köklü dəyişikliklərə səbəb olan mühüm addımlar qeyd edilib.**



Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda birinci instansiya məhkəmələrinin 70-dək hakiminin səlahiyyət müddətinin başa çatması ilə əlaqədar onların fəaliyyəti müzakirə edilməklə qiymətləndirilib.

Aparılan prinsipial təhlil və müzakirələr nəticəsində vətəndaşların haqlı narazılığını doğuran nöqsan və pozuntulara yol vermələri nəzərə alınaraq apellyasiya və birinci instansiya məhkəmələrinin ümumilikdə 20 hakiminin, o cümlədən 7 məhkəmə sədrinin hakimlik səlahiyyətlərinə xitam verilib, 6 məhkəmə sədri və apellyasiya məhkəmələrinin 8 hakiminin aşağı işə keçirilməsi məqsədəuyğun bilinib. Həmçinin, bir sıra birinci instansiya məhkəmələrinin sədri və hakimlərinin təyinatı, habelə hakim kadrlarından daha səmərəli istifadə edilməsi məqsədilə bəzi hakimlərin iş yerinin dəyişdirilməsi barədə Azərbaycan Respublikası Prezidentinə müvafiq təkliflər verilib.

Tədbirdə məhkəmə hakimiyyətində yalnız mənəvi saflığı, peşəkarlığı, yüksək hazırlığı və qərəzsizliyi ilə fərqlənən hakimlərin təmsil olunmasının zəruriliyi bildirilib, hakimliyə namizədlərin mütərəqqi beynəlxalq standartlar səviyyəsində, ən şəffaf üsullarla seçimi prosesi haqqında məlumat verilib, hazırda 126 nəfər hakimliyə namizədin çoxmərhələli imtahanlarda müvəffəqiyyət qazanaraq, 1 illik ilkin tədris kursuna cəlb edildiyi vurğulanıb.

İclasda həmçinin, qanunvericiliyin tələblərinin və icra intizamının pozulması hallarına, habelə süründürməçiliyə yol verdiklərinə görə 2 hakimin tutduğu vəzifədən azad olunaraq aşağı işə keçirilməsi qərara alınıb, 2 hakim barədə intizam icraatı başlanılıb.

# Azərbaycan Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olub

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə məqsədyönlü islahatlar aparılır, bu sahədə mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası, Dünya Bankı ilə sıx əməkdaşlıqda birgə uğurlu layihələr həyata keçirilir.**








Təsadüfi deyil ki, insan haqlarının etibarlı təminatına yönəlmiş məhkəmə islahatlarına beynəlxalq qurumlar tərəfindən böyük maraq göstərilərək, əldə olunan nailiyyətlər müsbət dəyərləndirilir və digər dövlətlərə örnək kimi tövsiyə edilir. Elə bu yaxınlarda Avropa Şurasının müraciəti əsasında Azərbaycan nümayəndə heyəti tərəfindən Moldovaya səfər edilərək həmkarlarımıza məhkəmə infrastrukturunun yaradılması sahəsində müsbət təcrübəmiz aşılanıb. Hazırda isə ölkəmizdə səfərdə olan Moskva Şəhər Məhkəməsi sədrinin rəhbərlik etdiyi geniş nümayəndə heyəti məhkəmə sistemindəki yenilikləri, o cümlədən elektron məhkəmənin tətbiqi təcrübəsini öyrənir.

Qeyd olunmalıdır ki, bu sahədə islahatlara dəstək göstərən nüfuzlu beynəlxalq maliyyə qurumu olan Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirib və "Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması" nominasiyasının qalibi elan edib.

Eyni zamanda, Avropa Şurasının mühüm təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) ölkəmizin bu sahədə nailiyyətlərini və uzun müddət səmərəli əməkdaşlığımızı nəzərə alaraq Plenar iclaslarından birini Strasburqdan kənarda, Bakıda keçirib, Azərbaycanda hakimlərin seçim prosedurunu şəffaflığına, obyektivliyinə və saflığına görə fərqləndirərək digər dövlətlər üçün örnək kimi dəyərləndirib. Həmçinin özünün bütün üzv dövlətlərdə yayılan dövrü nəşrində Azərbaycanda həyata keçirilən məhkəmə islahatlarına böyük önəm verərək buna ayrıca bölmə həsr edib. Avropalı ekspertlər Azərbaycan hakimiyyətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirib və belə qənaətə gəliblər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Bu günlərdə isə ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurası tərəfindən "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olub.

2005-ci ildən etibarən iki ildən bir keçirilən bu müsabiqədə ədliyyə və məhkəmə sistemlərinin fəaliyyəti ilə bağlı Avropa Şurasının üzv dövlətləri tə-

rəfindən təqdim olunan layihələr sırasından dörd ən qabaqcıl və səmərəli təcrübə seçilərək mükafatlandırılır.

2017-ci ildə keçirilmiş müsabiqədə Azərbaycan Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə ilə iştirak edib və bu layihə Avropa ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafata layiq görülüb. Digər qalib gələn üç layihə Norveç, Bolqarıstan və İtaliya tərəfindən təqdim edilib.

Avropa məkanında qeyd olunan 25 oktyabr - "Avropa Ədliyyə Günü" ərəfəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Edinburq şəhərində tarixi "Parlament Evi"ndə "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin cari ildə qalib elan olunmuş dövlətlərin mükafatlandırma mərasimi keçirilib.

Avropa Şurasının və Şotlandiyanın məhkəmə sisteminin yüksək vəzifəli şəxslərinin iştirak etdiyi tədbirdə ölkəmizi ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərov rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil edib.

Mərasimdən əvvəl təşkil olunmuş dəyirmi masada dünyada ədliyyə və məhkəmə sistemində həyata keçirilən islahatların prioritetləri barədə ekspertlərin iştirakı ilə müzakirələr aparılıb.

Ölkəmizin layihəsinin təqdimatı zamanı son illər dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və digər yeniliklər barədə məlumat verilib, ölkəmizin təqdim etdiyi layihənin əhəmiyyətindən danışılıb. Bildirilib ki, layihənin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasını əhatə edir. Elmi cəhətdən əsaslandırılmış bu sistem toplanan elektron statistik məlumatlar əsasında müxtəlif növ elektron analitik hesabatların hazırlanmasını mümkün edir.

Tədbirdə məhkəmə sisteminin elektron idarə olunması sahəsində Azərbaycanın təcrübəsi Avropada ən mütərəqqi layihə kimi qiymətləndirilib və müvafiq mükafat təntənəli surətdə Azərbaycan tərəfinə təqdim olunub.

Bu münasibətlə ölkəmizin Avropa Şurası yanında Daimi Nümayəndəliyindən Ədliyyə Nazirliyinə daxil olmuş təbrik məktubunda qeyd olunduğu kimi, əldə olunan bu nailiyyət dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə son illər həyata keçirilən məhkəmə-hüquq islahatlarına verilən növbəti qiymətdir. Bu yüksək mükafat, həmçinin Azərbaycanın bu sahədə Avropa Şurasının üzv dövlətləri arasında ön sıralarda yer almasını təzahür etdirməklə əlaqələrimizin müsbət məcrada inkişafına verilən böyük töhfədir.

# İstanbulda Hüquq təhsili üzrə Beynəlxalq Konqres keçirilib

**Oktyabrın 4-6-da Türkiyə Ədliyyə Akademiyasının təşkilatçılığı ilə İstanbulda Hüquq təhsili üzrə Beynəlxalq Konqres keçirilib.**

30-a yaxın dövlətdən akademiya rəhbərlərinin, alimlərin, hakimlərin və digər hüquqşünasların, ekspertlərin qatıldığı bu mötəbər tədbirdə ölkəmizin Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov iştirak edib.

Konqresdə hüquq təhsili sahəsində tədqiqatların aparılması, bu sahədə platformanın yaradılması, hüquq təhsilinin mühüm məqamlarının və əsaslarının müəyyən edilməsi, beynəlxalq əməkdaşlığın inkişafı və digər aktual məsələlər müzakirə olunub.

Tədbirdə Azərbaycanın nümayəndəsi tərəfindən "Azərbaycan Respublikasında hüquq təhsilinin müasir vəziyyəti" mövzusunda təqdimatla çıxış edilərək hüquq təhsili sisteminin tarixi və onun təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə məlumat verilib.

Səfər zamanı, həmçinin Türkiyə Akademiyasının




rəhbəri Yılmaz Akçil ilə görüş keçirilərək ölkələrimizin ədliyyə sahəsində əməkdaşlığından məmnunluq ifadə edilib, Ədliyyə akademiyaları arasında səmərəli qarşılıqlı fəaliyyət qeyd olunaraq bu əlaqələrin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, azərbaycanlı hakimliyə namizədlərin Türkiyə dövlətinin hesabına Ankarada tədris keçmələri təqdir olunub.

# Bir sıra rayonlarda vakant olan notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı noyabr ayının 25-də keçiriləcək



**Ədliyyə Nazirliyinin İxtisas Komissiyası bildirir ki, Cəlilabad, Xızı, İmişli, Masallı, Quba, Samux, Saatlı, Şəmkir və Yardımlı rayonlarında vakant olan notarius vəzifələri üzrə elan olunmuş müsabiqədə iştirakla bağlı sənədlərini təqdim etmiş və "Notariat haqqında" Qanunun tələblərinə cavab verən namizədlərlə test imtahanı Dövlət İmtahan Mərkəzi ilə birlikdə kompüterdən istifadə olunmaqla noyabr ayının 25-də saat 11.00-da Mərkəzin Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında (əvvəlki Bakı Asiya Universiteti) keçiriləcəkdir.**

Namizədlər test imtahanı barədə bildirişi 23-24 noyabr tarixlərində saat 9-dan 18-dək şəxsiyyət vəsiqəsini təqdim etməklə nazirliyin Qeydiyyat və notariat baş idarəsinin inzibati binasından (Bakı şəhəri, Azadlıq prospekti, 72) götürməlidirlər.

Buraxılış rejiminin və yerləşdirilmənin təmin olunması üçün namizədlər imtahanın başlanmasına 1 saat qalmış gəlməli, şəxsiyyət vəsiqəsini və müvafiq bildirişi mütləq təqdim etməlidirlər.

İmtahanın keçiriləcəyi yer üzrə naviqasiya məlumatları, test imtahanında kompüterdən istifadəyə dair Təlimat və digər zəruri informasiya Ədliyyə Nazirliyinin internet səhifəsində (www.justice.gov.az) yerləşdirilib, eyni zamanda nazirliyə müraciət edənlər bu məlumatları əldə edə bilərlər.

Xatırladırıq ki, "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"na uyğun olaraq test imtahanının yekunlarına görə 55 və daha çox bal toplamış şəxslər ikinci mərhələyə - müsahibəyə buraxılırlar.

Əlavə məlumatları nazirliyin internet səhifəsindən, habelə 404-42-28, 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə əldə etmək mümkündür.

# Məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edilir

**Məhkəmə ekspertizası mərkəzinin Müsabiqə Komissiyası bildirir ki, həmin mərkəzə qulluğa qəbulla bağlı son müsabiqədə müvəffəqiyyət qazanmış namizədlər hazırda peşə fəaliyyətinə buraxılma məqsədilə Ədliyyə Akademiyasında icbari təlim keçirlər.**

Bununla belə Məhkəmə ekspertizası mərkəzində vakant ştat vahidlərinin komplektləşdirilməsi üçün peşəkar kadrlara olan ehtiyac nəzərə alınaraq növbəti açıq müsabiqə elan edilir.

Vakant ştat vahidləri Məhkəmə ekspertizası mərkəzində əsasən filologiya (Azərbaycan dili və ədəbiyyatı), fizika, kimya, inşaat mühəndisliyi, mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi, yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi, yol hərəkətinin təşkili, eləcə də Mərkəzin Şirvan regional bölməsində kimya ixtisası üzrədir.

Ədliyyə orqanlarında qulluq keçmə ilə bağlı qanunvericiliyin tələblərinə cavab verən həmin ixtisaslar üzrə ali təhsilə malik Azərbaycan Respublikasının vətəndaşları müsabiqəyə dəvət olunur.

Arzu edənlər 2017-ci ilin oktyabr ayından etibarən müəyyən olunmuş ərizə formasını və digər zəruri sənədləri aşağıda göstərilən ünvanlarda:

- Məhkəmə ekspertizası mərkəzinin inzibati binasında (Bakı şəhəri, Xəqani küçəsi, 24, tel: (012) 498-09-71);

- Mərkəzin Gəncə regional bölməsində (Gəncə şəhəri, Kəpəz rayonu, V.Xuluflu küçəsi 11, tel: (0222) 65-18-96);

- Mərkəzin Şəki regional bölməsində (Şəki şəhəri, Salman Mümtaz küçəsi 1, tel: (+99470) 229-30-29);

- Mərkəzin Şirvan regional bölməsində (Şirvan şəhəri, 20 yanvar küçəsi 16, tel: (02121) 5-55-91) təqdim edə bilərlər.

Müsahibədə iştirak etmək üçün qanunvericiliyə əsasən tələb olunan sənədlərin siyahısı və imtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" Mərkəzin internet səhifəsində (www.expert.gov.az) "İşə qəbul" bölməsində yerləşdirilib, habelə Mərkəzə və onun regional bölmələrinə müraciət edənlərə veriləcəkdir.

Mərkəzin internet səhifəsindən, eləcə də yuxarıda göstərilən telefon nömrələrinə zəng etməklə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Ədliyyə Akademiyasının məlumatları

**Hakimlərin davamlı tədrisi çərçivəsində cari ilin oktyabrında 50-ə yaxın hakimin iştirakı ilə təlim və ixtisasartırma kursu keçirilib.**



"Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi həyata və ailə həyatına hörmət hüququ)" mövzusunda keçirilmiş təlimdə həmin maddənin əhatə dairəsi, aspektləri - şəxsi həyat və ailə həyatı, mənzilə hörmət hüququ və yazışma sirrinin toxunulmazlığı hüququ, geri çəkilmə müddəası: dövlətin mülahizə sərbəstliyi, pozitiv və neqativ öhdəliklər, Konvensiyanın digər maddələri ilə qarşılıqlı əlaqəsi barədə mühazirələr dinlənilib. Eyni zamanda Avropa Şurasının HELP Proqramının əyani təqdimatı olub.

"Mülki qanunvericiliyin tətbiqinin aktual məsələləri" mövzusuna həsr olunmuş ixtisasartırma kursunda isə əsassız varlanma - mülki hüququn və vəzifələrin əmələ gəlməsinin əsası kimi, torpaq sahələrinin mülkiyyətə və icarəyə verilməsinin, ziyan vurma nəticəsində əmələ gələn öhdəliklər üzrə işlərə məhkəmələrdə baxılmasının xüsusiyyətləri və s. müzakirə edilib.



Oktyabrın 11-də Avropa Şurası və Avropa İttifaqının "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə proqramının "İfadə azadlığı və media azadlığı" layihəsi çərçivəsində Akademiyada tədris kursu keçən hakimliyə namizədlər üçün "Hakimlərin kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəsi" mövzusunda təlim keçirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Zoltan Hernyes və Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov açılış nitqi ilə çıxış edib, bu cür tədbirlərin hakimlərin və digər hüquqşünasların ifadə və media azadlığı sahəsində Avropa Şurası standartlarına və Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedent hüququna dair məlumatlılığının artırılmasında əhəmiyyətini qeyd ediblər.

Təlimdə həmin mövzular ətrafında geniş müzakirələr aparılıb və layihə çərçivəsində çap edilmiş vəsaitlər namizədlər arasında paylanılıb.



Ədliyyə Akademiyası tərəfindən Avropa Şurası ilə birgə həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində paytaxtda və bölgələrdə hakimlər, vəkillər və digər hüquqşünaslar üçün silsilə tədbirlər təşkil olunur.

Oktyabrın 26-27-də təlimçilər üçün pedaqoji bacarıqlarının artırılması məqsədilə iki günlük seminar keçirilib.

Beynəlxalq ekspertlərin İvana Roagna (İtaliya) və Niku Kretu (Moldova) iştirakı ilə keçirilmiş seminarda dinləyicilərə silsilə təlimlərin keçirilməsi təcrübəsinə dair ümumi məlumat verilib, treninq metodologiyası sahəsində yeni bacarıqlar, auditoriyada dinləyicilərin ehtiyaclarının öyrənilməsinə barədə yeni biliklər nümayiş etdirilib.

Eyni zamanda, kaskad təlimlərdə qarşıya çıxan problemlərin müzakirəsi aparılıb və onun həlli yollarına dair tövsiyələr verilib.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

Bununla yanaşı, Bakıda Vəkillər Kollegiyasının 40-dan çox üzvünün iştirakı ilə iki günlük təlim keçirilib. Tədbirdə Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi (Fikri ifadə etmək azadlığı) və 11-ci maddəsi (Yığıncaqlar və birləşmək azadlığı) mövzuları tədris olunub.

Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində də vəkillər üçün təlim keçirilərək Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ) mövzusunda mühazirələr dinlənilib. Tədbirdə Muxtar Respublikanın Vəkillər Kollegiyasının üzvləri, həmçinin Ali və birinci instansiya məhkəməsinin hakimləri və digər hüquqşünaslar iştirak ediblər.



30-a yaxın dinləyicinin cəlb olunduğu tədbirdə mövzuların tədrisi təlimçilər üçün təlim proqramının iştirakçıları tərəfindən həyata keçirilib, maraq doğuran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

**Akademiya tərəfindən, həmçinin ədliyyə işçilərinin ixtisaslarının artırılması məqsədilə mütəmadi kurslar təşkil olunur.**



Cari ilin oktyabrında icra məmurları və regional ədliyyə idarələrinin əməkdaşları, Penitensiar xidmətin şəxsi heyəti üçün ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı və ondan irəli gələn vəzifələr, o cümlədən korrupsiyaya qarşı mübarizə, ədliyyə orqanlarında müasir İKT-lərin tətbiqi imkanları mövzularında ixtisasartırma kursları keçirilib.

Kurslarda probasiya və bu sahədə xarici ölkələrin təcrübəsi, cəza siyasətinə humanist yanaşma, ədliyyə işçilərinin antikorrupsiya mədəniyyəti və fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması, etik davranış qaydalarına dönmədən riayət olunması və bu

qaydaların pozulmasına görə məsuliyyət, eləcə də ədliyyə orqanlarında açıq hökumət prinsiplərinin tətbiqi, elektron imza, nazirliyin elektron informasiya sistemləri, ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər və digər aktual mövzular tədris olunub.

# Beynəlxalq qurumların təmsilçiləri Şəki regional ədliyyə idarəsində olublar

**Oktyabrın 26-27-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Qulam İsakzai Şəkidə olublar.**

Qonaqlar Şəki regional ədliyyə idarəsinin və "Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzinin birgə həyata keçirdiyi "Azərbaycanda məhbuslara hüquqi, reabilitasiya və reinteqrasiya yardımının göstərilməsi" layihəsinin icrası ilə tanış olub, layihə çərçivəsində biznesin yaradılması üçün texniki dəstək almış keçmiş məhbuslar və onların ailə üzvləri ilə görüşüblər.

Sonra beynəlxalq qurumların təmsilçiləri Şəki regional ədliyyə idarəsində olublar. Görüş zamanı idarənin rəisi Rəhman Məmmədov ədliyyə və məhkəmə sistemində həyata keçirilən islahatlar, bu sahədə regionda görülmüş işlər barədə məlumat verib, nazirliyin səmərəli beynəlxalq əməkdaşlığını vurğulayıb. Həmçinin, idarənin qeyd olunan layihədəki rolundan və görülən işlərdən bəhs olunub.

Qonaqlar ədliyyə sahəsində aparılan islahatların, Avropa İttifaqı ilə birgə layihələrin əhəmiyyətini vurğulayıb, məhkumların reabilitasiyası və reinteqrasiyası üzrə görülən tədbirləri təqdir edərək bu işlərin gələcəkdə də davam etdirilməsinin vacibliyini qeyd ediblər. Q.İsakzai layihə çərçivəsində qazanılan uğurlu təcrübənin bir model olaraq respublika miqyasında genişləndirilməsinin, habelə xarici dövlətlərdə tətbiqinin əhəmiyyətinə toxunub.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi diqqət mərkəzindədir

**Ədliyyə Nazirliyinin regional ədliyyə idarələri tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsinə daim xüsusi diqqət yetirilərək bu məqsədlə müxtəlif bölgələrdə mütəmadi seminar-müşavirələr təşkil edilir.**

Cari ilin oktyabrında Gəncə, Lənkəran və İmişli regional ədliyyə idarələri tərəfindən öz ərazi yurisdiksiyalarına daxil olan şəhər və rayonlarda bələdiyyə nümayəndələrinin iştirakı ilə keçirilmiş seminarlarda bələdiyyələrin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzi və regional ədliyyə idarələri tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi, onlara metodiki kömək göstərilməsi və fəaliyyətlərinə inzibati nəzarət sahəsində görülən işlər barədə məlumat verilib, qarşıda duran vəzifələrdən danışılıb.

Həmçinin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən araşdırmaların aparılmasına maneçilik törədilməsinə görə tərtib edilmiş inzibati xəta haqqında protokolun tətbiqi, bələdiyyənin maliyyə hesabatlarının tərtib edilməsi qaydası, bələdiyyə aktlarının qəbulu və icrası, nağdsız hesablaşmalar və onların məqsədi, kargüzarlığın təşkili, bələdiyyə qulluğuna qəbulun xüsusiyyətləri, korrupsiya hüquqpozmalarının qarşısının alınması və bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması, etik davranış qaydaları, bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun tələblərinə əməl edilməsi və digər aktual mövzular üzrə mühazirələr dinlənilib.

Seminar-müşavirələrdə mövzular üzrə faydalı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, II kitab, maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12, I kitab, maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 16.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"16.3. Əvvəllər törətdiyi cinayətə görə məhkum olunmuş, məhkumluğu götürülmüş və ya ödənilmiş, yaxud cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş və ya həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda müxtəlif maddələri ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.";

1.2. 18.4-cü maddə üzrə:

1.2.1. 18.4.1-ci və 18.4.2-ci maddələrdə "cinayətlərə görə məhkumluqlar" sözləri "cinayətlər" sözü ilə əvəz edilsin;

1.2.2. 18.4.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 18.4.4-cü maddə əlavə edilsin:

"18.4.4. azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza təyin edilmiş cinayətlərə görə məhkumluqlar.";

1.3. aşağıdakı məzmunda 42.0.9-1-ci maddə əlavə edilsin:

"42.0.9-1. azadlığın məhdudlaşdırılması;";

1.4. 43.1-ci maddədə "saxlama," sözündən sonra "azadlığın məhdudlaşdırılması," sözləri əlavə edilsin;

1.5. 44.4-cü maddədə "islah işləri" sözlərindən sonra ", azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.6. 46.3-cü maddənin ikinci cümləsində "Bu cəza

növünün" sözlərindən sonra "cərimə və" sözləri əlavə edilsin;

1.7. 47-ci maddə üzrə:

1.7.1. 47.1-ci maddənin ikinci cümləsi çıxarılsın;

1.7.2. 47.3-cü maddənin birinci cümləsində "hissəsini" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu zaman məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş dörd saat ictimai işə bir gün azadlığın məhdudlaşdırılması və ya səkkiz saat ictimai işə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.";

1.7.3. 47.4.3-cü maddədə "səkkiz" sözü "üç" sözü ilə əvəz edilsin və "qadınlara" sözündən sonra ", habelə üç yaşınadək uşağı təkbaşına böyüdən kişilərə" sözləri əlavə edilsin;

1.7.4. 47.4.5-ci maddədə "qulluqçulara" sözündən sonra "və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına" sözləri əlavə edilsin;

1.8. 48-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"48.0. Ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin ictimai təhlükəliliyinin xarakterini və dərəcəsini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə aşağıdakı qərarlardan birini qəbul edir:

48.0.1. müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə həmin orqana təqdimat göndərilməsi haqqında qərar;

48.0.2. digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi haqqında qərar.";

1.9. 49-cu maddə üzrə:

1.9.1. 49.3-cü maddənin birinci cümləsində "hissəsini" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu zaman məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş iki gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması və ya üç gün islah işlərinə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.";

1.9.2. aşağıdakı məzmunda 49.4-cü maddə əlavə edilsin:

"49.4. İslah işləri birinci qrup əlillərə və hərbi qulluqçulara təyin edilmir.";

1.10. 50-ci maddə üzrə:

1.10.1. 50.1-ci maddədən hər iki halda "kontrakt (bağlaşma) əsasında hərbi xidmət keçən və" sözləri çıxarılsın;

1.10.2. 50.2-ci maddədə "qazancından" sözü "aylıq pul təminatından" sözləri ilə əvəz edilsin;

1.10.3. aşağıdakı məzmunda 50.4-cü maddə əlavə edilsin:

"50.4. Hərbi xidmət üzrə məhdudlaşdırma müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına tətbiq olunmur.";

1.11. aşağıdakı redaksiyada 52-1-ci maddə əlavə edilsin:

"Maddə 52-1. Azadlığın məhdudlaşdırılması

52-1.1. Azadlığın məhdudlaşdırılması cəzası məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarətdir. Məhkəmə azadlığın məhdudlaşdırılması cəzası təyin edilmiş məhkumun yaşayış yerini (tamamilə və ya günün müəyyən vaxtlarında) və müəyyən ərazi hüdudlarını tərk etməsinə məhdudiyyət qoyur.

52-1.2. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxs aşağıdakı vəzifələri yerinə yetirməlidir:

52-1.2.1. yaşayış yerini tamamilə və ya günün müəyyən vaxtlarında tərk etməmək;

52-1.2.2. elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək;

52-1.2.3. məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını tərk etməmək;

52-1.2.4. müvafiq məhkəmə qərarı olmadan yaşayış yerini dəyişdirməmək, habelə cəzanın icrasına nəzarət edən orqanı iş və ya təhsil yerinin dəyişdirilməsi barədə əvvəlcədən məlumatlandırmaq.

52-1.3. Məhkəmə məhkum üçün aşağıdakı əlavə vəzifələr müəyyən edə bilər:

52-1.3.1. kütləvi və digər tədbirlər təşkil etməmək və ya belə tədbirlərdə iştirak etməmək;

52-1.3.2. məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilində müəyyən yerlərə getməmək;

52-1.3.3. alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək;

52-1.3.4. məhkumun islah olunmasına kömək edən digər vəzifələr.

52-1.4. Azadlığın məhdudlaşdırılması altı aydan beş ilədək müddətə təyin edilir.

52-1.5. Məhkəmənin müəyyən etdiyi vəzifələri

mütəmadi və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçıran məhkumun cəzasının çəkilməmiş hissəsi cəzanın icrasına nəzarət edən orqanın təqdimatı əsasında məhkəmə tərəfindən müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilir. Bu zaman iki gün azadlığın məhdudlaşdırılması bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

52-1.6. Azadlığın məhdudlaşdırılması hərbi qulluqçulara, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri olmayan şəxslərə təyin edilmir.";

1.12. 55.3-cü maddədə "və ya islah işləri" sözləri ", islah işləri və ya azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

1.13. 57.4-cü maddədən "beş" sözü çıxarılsın;

1.14. 58.1-ci maddənin ikinci cümləsində "növü" sözündən sonra hər iki halda "və ya həddi" sözləri əlavə edilsin;

1.15. 59-cu maddə üzrə:

1.15.1. 59.1.9-cu və 59.1.10-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"59.1.9. cinayətin anlaqlılığı istisna etməyən psixi pozuntusu olan şəxs tərəfindən törədilməsi;

59.1.10. şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi;";

1.15.2. aşağıdakı redaksiyada 59.1.11-59.1.14-cü maddələr əlavə edilsin:

"59.1.11. cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardım göstərilməklə onun həyat və sağlamlığına dəyə biləcək zərərin azaldılması;

59.1.12. zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi;

59.1.13. cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması;

59.1.14. cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi.";

1.15.3. 59.2-ci maddədə "59.1.10-cu" sözləri "59.1.14-cü" sözləri ilə əvəz edilsin;

1.16. 60-cı maddə üzrə:

1.16.1. maddənin mətni 60.1-ci maddə hesab edilsin və həmin maddədə "59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallar olduqda" sözləri "59.1.8, 59.1.10-59.1.13-cü maddələrinin hər hansı birində nəzərdə tutulmuş bütün hallar mövcud olduqda" sözləri ilə əvəz edilsin;

1.16.2. aşağıdakı məzmunda 60.2-ci maddə əlavə edilsin:

"60.2. Bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsinin sanksiyasında ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduqda, bu Məcəllənin 60.1-ci maddəsində müəyyən edilmiş qayda tətbiq edilmir.";

1.17. 61.1.7-ci maddədə "müqəssir" sözü "təqsirkar" sözü ilə, "müqəssirdən" sözü "təqsirkardan" sözü ilə əvəz edilsin;

1.18. 66-cı maddə üzrə:

1.18.1. 66.2-ci maddənin:

1.18.1.1. birinci cümləsində "yalnız böyük ictimai təhlükə törətməyən" sözləri "böyük ictimai təhlükə törətməyən və ya az ağır" sözləri ilə əvəz edilsin;

1.18.1.2. ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu halda az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə təyin olunmuş qəti cəzanın müddəti və ya həcmi məcmuya daxil olan cinayətlərə görə ayrı-ayrılıqda təyin edilmiş cəzaların daha ağırından çox ola bilməz.";

1.18.1.3. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Cəzaların tamamilə və ya qismən toplanılması yolu ilə təyin edilmiş qəti cəzanın müddəti və ya həcmi azadlıqdan məhrum etmə növündə cəzaya münasibətdə böyük ictimai təhlükə törətməyən cinayətlərə görə üç ildən, az ağır cinayətlərə görə on iki ildən, digər cəzalara münasibətdə isə bu Məcəllənin Ümumi hissəsində müvafiq cəza növü üçün müəyyən edilmiş yuxarı həddən artıq ola bilməz.";

1.18.2. 66.3-cü maddədən "az ağır," sözləri çıxarılsın;

1.19. 68-ci maddə üzrə:

1.19.1. aşağıdakı məzmunda 68.1.1-1-ci maddə əlavə edilsin:

"68.1.1-1. azadlığın məhdudlaşdırılmasının iki günü;";

1.19.2. 68.2-ci maddədə "məhdudlaşdırma" sözündən sonra ", azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.20. 69-cu maddə üzrə:

1.20.1. 69.1-ci maddədə "işlərinin," sözündən sonra "azadlığın məhdudlaşdırılmasının," sözləri əlavə edilsin;

1.20.2. 69.3-cü maddədə "bir gün," sözlərindən sonra "azadlığın məhdudlaşdırılması növündə cəzanın müddətinə bir günə iki gün," sözləri əlavə edilsin;

1.21. 70.5-ci maddənin birinci cümləsində "yardım göstərmək" sözlərindən sonra ", elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət

etmək" sözləri əlavə edilsin;

1.22. 71-ci maddə üzrə:

1.22.1. 71.3-cü maddədə "boyun qaçırdıqda," sözlərindən sonra "o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə," sözləri əlavə edilsin, "çıxara bilər" sözləri "çıxarır" sözü ilə əvəz edilsin;

1.22.2. 71.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə şərti məhkum etmənin ləğv edilməsi qənaətinə gəldikdə, şəxsə bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

1.22.3. 71.5-ci maddənin ikinci cümləsi çıxarılsın;

1.23. 72.1-ci maddədə "İlk dəfə böyük" sözləri "Böyük" sözü ilə əvəz edilsin;

1.24. 72-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Şəxs bu Məcəllənin 72 - 73-2 və 74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.";

1.25. 73-cü maddə üzrə:

1.25.1. maddənin mətni 73.1-ci maddə hesab edilsin və həmin maddədə "İlk dəfə böyük" sözləri "Böyük" sözü ilə əvəz edilsin;

1.25.2. aşağıdakı məzmunda 73.2-ci maddə əlavə edilsin:

"73.2. Bu Məcəllənin 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.";

1.26. aşağıdakı məzmunda 73-1-ci və 73-2-ci maddələr əlavə edilsin:

"Maddə 73-1. Mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə

73-1.1. Bu Məcəllənin 178.1, 179.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

73-1.2. Bu Məcəllənin 178.2, 179.2 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

73-1.3. Bu Məcəllənin 178.3, 178.4, 179.3 və 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın iki misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilə bilər.

Maddə 73-2. İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə

73-2.1. Bu Məcəllənin 209.1, 209.2.2 və 213-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

73-2.2. Bu Məcəllənin 192, 192-1, 193, 195, 195-1, 196, 197, 198, 202-2, 203, 203-1.1, 205-2, 209.2.1, 209.3, 210, 211, 212 və 213-2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.";

1.27. 74-cü maddədən "ilk dəfə" sözləri çıxarılsın;

1.28. aşağıdakı məzmunda 74-1-ci maddə əlavə edilsin:

"Maddə 74-1. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə

74-1.1. Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə, məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir.

74-1.2. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiqindən yayınmış şəxs həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin müdiriyyətinin məlumatı əsasında bu Məcəllənin 75.1-ci maddəsində göstərilən müddət keçməmişdirsə, cinayət məsuliyyətinə cəlb edilir.";

1.29. 76-cı maddə üzrə:

1.29.1. 76.1-ci maddənin birinci cümləsində "intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və ya müəyyən müddətə" sözləri "hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük" sözləri ilə əvəz edilsin;

1.29.2. aşağıdakı məzmunda 76.3.1-1-ci maddə əlavə edilsin:

"76.3.1-1. ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsini;";

1.29.3. 76.3.3-cü maddədən "ağır və ya" sözləri çıxarılsın;

1.29.4. aşağıdakı məzmunda 76.4-1-ci maddə əlavə edilsin:

"76.4-1. Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin bu Məcəllənin 57.3-cü maddəsində nəzərdə tutulmuş qaydada cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı onun cəza çəkdiyi dövrün son beş ili ərzində cəzanın çəkilməsi qaydalarına əməl etməsi halları nəzərə alınır.";

1.29.5. 76.6.1-ci maddədə "qaçırdıqda" sözündən sonra ", o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə" sözləri əlavə edilsin;

1.29.6. 76.6.2-ci və 76.6.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"76.6.2. ehtiyatsızlıqdan cinayət törətdikdə və ya qəsdən böyük ictimai təhlükə törətməyən cinayət törətdikdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və ya saxlanılması barədə məsələ məhkəmə tərəfindən həll edilir (cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ləğv edildiyi halda, cəza bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə təyin olunur);

76.6.3. qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdikdə, məhkəmə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməni ləğv edir və ona bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

1.30. 79-cu maddə üzrə:

1.30.1. 79.1-ci maddədə (hər üç halda) və 79.3-cü maddədə "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin;

1.30.2. 79.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"79.4. Şəxs cəzaçəkmənin təxirə salındığı müddətdə ehtiyatsızlıqdan cinayət törətdikdə və ya qəsdən böyük ictimai təhlükə törətməyən cinayət törətdikdə cəzaçəkmənin təxirə salınmasının ləğv edilməsi və ya saxlanması barədə məsələ məhkəmə tərəfindən həll edilir. Məhkəmə cəzaçəkmənin təxirə salınmasının ləğv edilməsi qənaətinə gəldikdə, şəxsə bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

1.30.3. aşağıdakı məzmunda 79.5-ci maddə əlavə edilsin:

"79.5. Şəxs cəzaçəkmənin təxirə salındığı müddətdə qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdikdə, məhkəmə cəzaçəkmənin təxirə salınmasını ləğv edir və ona bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

1.31. 83-cü maddə üzrə:

1.31.1. 83.2-ci maddədə "Cəzadan azad edilmiş şəxs" sözləri "Barəsində cəza təyin edilməməklə və ya təyin edilmiş cəzadan azad edilməklə əlaqədar ittiham hökmü çıxarılmış şəxs" sözləri ilə əvəz edilsin;

1.31.2. 83.3-cü maddədə "hallarda" sözündən sonra "məhkumluq ödənilmiş hesab olunur" sözləri əlavə edilsin;

1.31.3. aşağıdakı məzmunda 83.3.1-1-ci, 83.3.1-2-ci və 83.3.2-1-ci maddələr əlavə edilsin:

"83.3.1-1. cəzanın çəkilməsi təxirə salınmış şəxslər barəsində - bu Məcəllənin 79.3-cü maddəsində nəzərdə tutulmuş qaydada cəzadan və ya cəzanın çəkilməmiş hissəsindən azad edildikdə;

83.3.1-2. ittiham hökmü qanunla müəyyən edilmiş müddətdə icra edilməmiş şəxslər barəsində - bu Məcəllənin 80.1-ci maddəsində nəzərdə tutulmuş müddətlər keçdikdə;

83.3.2-1. böyük ictimai təhlükə törətməyən cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən bir il keçdikdə;";

1.31.4. 83.3.3-cü maddədən "böyük ictimai təhlükə törətməyən və ya" sözləri çıxarılsın, "üç" sözü "iki" sözü ilə əvəz edilsin;

1.31.5. 83.3.5-ci maddədən "məhkumluq ödənilmiş hesab olunur" sözləri çıxarılsın;

1.32. 85-ci maddə üzrə:

1.32.1. aşağıdakı məzmunda 85.1.3-1-ci maddə əlavə edilsin:

"85.1.3-1. azadlığın məhdudlaşdırılması;";

1.32.2. 85.2-ci maddənin birinci cümləsində "çatmayan məhkuma" sözləri "çatmayana" sözü ilə əvəz edilsin;

1.32.3. 85.4-cü maddənin birinci cümləsində və 85.5-ci maddənin birinci cümləsində "çatmayan məhkumlara" sözləri "çatmayanlara" sözü ilə əvəz edilsin;

1.32.4. aşağıdakı məzmunda 85.4-1-ci maddə əlavə edilsin:

"85.4-1. Azadlığın məhdudlaşdırılması yetkinlik yaşına çatmayanlara iki aydan iki ilədək müddətə təyin edilir.";

1.33. 90.0-cı maddədə "işlərinə" sözündən sonra ", azadlığın məhdudlaşdırılmasına" sözləri əlavə edilsin;

1.34. aşağıdakı məzmunda 90-1-ci maddə əlavə edilsin:

"Maddə 90-1.Yetkinlik yaşına çatmayanların cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi

90-1.1. Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən yetkinlik yaşına çatmayan şəxsin cəzasını çəkdiyi dövrdə davranışını nəzərə alaraq, məhkəmə cəzanın çəkilməmiş hissəsini bu Məcəllənin 85.1-ci maddəsində nəzərdə tutulmuş istənilən daha yüngül cəza növü ilə əvəz edə bilər. Bu halda şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər.

90-1.2. Yetkinlik yaşına çatmayanın cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəza müddətinin ən azı dörddə bir hissəsi çəkildikdən sonra tətbiq edilə bilər.";

1.35. aşağıdakı məzmunda 93-1.3-93-1.7-ci maddələr əlavə edilsin:

"93-1.3. Bu Məcəllənin 74-1.1-ci maddəsində nəzərdə tutulmuş şəxslər barəsində narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər müvafiq icra hakimiyyəti orqanının tibb müəssisələrində həyata keçirilir.

93-1.4. Narkomaniya xəstəliyi ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin tam sağalması nəticəsində həmin tədbirlərin ləğv edilməsi zərurəti yarandıqda, yaxud davam etdirilməsinə ehtiyac olduqda həmin tədbirlərin tətbiqinin uzadılması və ya ləğv edilməsi məsələsi həkim-məsləhət komissiyasının rəyi əsasında müvafiq tibb müəssisəsinin müdiriyyətinin təqdimatı ilə həmin müəssisənin yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən həll edilir.

93-1.5. Narkomaniya xəstəliyi ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxs bu tədbirin tətbiqinin uzadılması və ya ləğv edilməsi məsələsinin həll edilməsi məqsədi ilə altı ayda bir dəfədən az olmayaraq həkim-məsləhət komissiyasında baxışdan keçirilməlidir. Həmin tədbirlərin uzadılması və ya ləğv edilməsi məsələsinə ilk dəfə müalicənin başlandığı gündən altı ay keçdikdən sonra baxılır.

93-1.6. Məhkəmə bu Məcəllənin 93-1.4-cü maddəsində nəzərdə tutulmuş məsələlər üzrə qəbul edilmiş qərarları həmin tədbirləri tətbiq etmiş məhkəməyə göndərir.

93-1.7. Şəxs tibbi xarakterli məcburi tədbirlərdən yayındıqda həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin müdiriyyəti bu barədə həmin tədbirləri tətbiq etmiş məhkəməyə yazılı məlumat verir.";

1.36. 121-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.37. 122.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.38. 123-cü maddə üzrə:

1.38.1. 123.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.38.2. 123.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.39. 124.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.40. 127-ci maddə üzrə:

1.40.1. 127.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.40.2. 127.2-ci maddənin sanksiyasında "beş" sözündən əvvəl "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən" sözləri əlavə edilsin;

1.41. 128-ci maddə üzrə:

1.41.1. sanksiyada "bir ilədək müddətə islah işləri" sözləri "iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

1.41.2. "Qeyd" hissəsi ləğv edilsin;

1.42. 129-cu maddə üzrə:

1.42.1. 129.1-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

1.42.2. 129.2-ci maddənin sanksiyasında "islah işləri" sözlərindən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.43. 130-cu maddə üzrə:

1.43.1. maddənin adından "sağlamlığa ağır" (birinci halda) sözləri və "və ya az ağır" sözləri çıxarılsın;

1.43.2. 130.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.43.3. 130.2-ci maddədən "və ya az ağır" sözləri çıxarılsın;

1.43.4. 130.2-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

1.44. 131-ci maddə üzrə:

1.44.1. maddənin adından "az ağır və ya" sözləri çıxarılsın;

1.44.2. 131.1-ci maddə ləğv edilsin;

1.44.3. 131.2-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.45. 133.1-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

1.46. 134-cü maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.47. 140-cı maddə üzrə:

1.47.1. 140.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.47.2. 140.4-cü maddənin sanksiyasında "edilməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.48. 141.3-cü maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.49. 142-ci maddə üzrə:

1.49.1. 142.1-ci maddənin sanksiyasında "və ya bir ilədək müddətə" sözlərindən sonra "azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə" sözləri əlavə edilsin;

1.49.2. 142.2-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.50. 143-1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.51. 144-3.1-ci, 144-3.2-ci və 144-3.3-cü maddələrin sanksiyasında "bir ildən" sözlərindən əvvəl "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.52. 147.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.53. 156.2-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.54. 157-ci maddə üzrə:

1.54.1. 157.2-ci maddənin sanksiyasında "eyni" sözü "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək" sözləri ilə əvəz edilsin;

1.54.2. 157.3-cü maddənin sanksiyasında "edilməklə üç" sözləri "edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.55. 158-ci maddə üzrə:

1.55.1. 158.2-ci maddənin sanksiyasında "eyni" sözü "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək" sözləri ilə əvəz edilsin;

1.55.2. 158.3-cü maddənin sanksiyasında "edilməklə üç" sözləri "edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.56. 160.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.57. 162.1-ci maddənin sanksiyasında "işləri ilə" sözləri "işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

1.58. 162-1-ci maddə üzrə:

1.58.1. 162-1.1-ci maddənin sanksiyasında "üç" sözü "iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.58.2. 162-1.2-ci maddənin sanksiyasında "üç" sözündən sonra "ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç" sözləri əlavə edilsin;

1.58.3. "Qeyd" hissəsi üzrə:

1.58.3.1. mətni 1-ci bənd hesab edilsin və həmin bənddə "maddədə" sözü "Məcəllənin 162-1.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.58.3.2. aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilsin:

"2. Bu Məcəllənin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

3. Şəxs bu "Qeyd"in 2-ci bəndində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.";

1.59. 165.2-ci, 165-1.2-ci, 165-2.2-ci, 165-3.2-ci və 166.2-ci maddələrin sanksiyasında "üç" sözü "iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.60. 169-cu maddə üzrə:

1.60.1. 169.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.60.2. 169.2-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.61. 177-ci maddə üzrə:

1.61.1. 177.1-ci maddənin sanksiyası aşağıdakı

redaksiyada verilsin:

"üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.61.2. 177.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.61.3. 177.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 177.1 və ya 177.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.61.4. 177.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 177.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.61.5. 177.3-cü maddənin sanksiyasında "yeddi ildən on iki" sözləri "beş ildən on" sözləri ilə əvəz edilsin;

1.61.6. aşağıdakı məzmunda 177.4-cü maddə əlavə edilsin:

"177.4. Bu Məcəllənin 177.1-177.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.61.7. "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Qeyd:

1. Bu Məcəllənin 177.1, 178.1 və 179.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Bu Məcəllənin 177.2.1-177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda yaranır.

2. Bu Məcəllənin 177-182-ci, 185-187-ci və 189-1-ci maddələrində "xeyli miqdar" dedikdə, beş min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

3. Bu Məcəllənin 177-183-cü, habelə 213-3, 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs tərəfindən bu Məcəllənin 177-183-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin hər hansı birinin yenidən törədilməsi (bu Məcəllənin 16.3-cü maddəsində göstərilən hallar istisna olunmaqla) onların təkrar törədilməsi hesab olunur.";

1.62. 178-ci maddə üzrə:

1.62.1. 178.1-ci maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.62.2. 178.2-ci maddənin sanksiyasında "üç ildən yeddi" sözləri "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş" sözləri ilə əvəz edilsin;

1.62.3. 178.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 178.1 və ya 178.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.62.4. 178.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 178.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.62.5. 178.3-cü maddənin sanksiyasında "yeddi ildən on iki" sözləri "beş ildən on" sözləri ilə əvəz edilsin;

1.62.6. aşağıdakı məzmunda 178.4-cü maddə əlavə edilsin:

"178.4. Bu Məcəllənin 178.1-178.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.63. 179-cu maddə üzrə:

1.63.1. 179.1-ci maddənin sanksiyasında "ictimai işlər və ya" sözlərindən sonra "iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.63.2. 179.2-ci maddənin sanksiyasında "üç ildən yeddi" sözləri "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş" sözləri ilə əvəz edilsin;

1.63.3. 179.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 179.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.63.4. 179.3-cü maddənin sanksiyasında "yeddi ildən on iki" sözləri "beş ildən on" sözləri ilə əvəz edilsin;

1.63.5. aşağıdakı məzmunda 179.4-cü maddə əlavə edilsin:

"179.4. Bu Məcəllənin 179.1-179.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.64. 180-ci maddə üzrə:

1.64.1. 180.1-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri" sözləri "üç ilədək müd-

dətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

1.64.2. 180.2-ci maddənin sanksiyasında "dörd ildən səkkiz" sözləri "üç ildən yeddi" sözləri ilə əvəz edilsin;

1.64.3. 180.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 180.1 və ya 180.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.64.4. 180.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 180.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.64.5. 180.3-cü maddənin sanksiyasında "üç" sözü "iki" sözü ilə əvəz edilsin;

1.64.6. aşağıdakı məzmunda 180.4-cü maddə əlavə edilsin:

"180.4. Bu Məcəllənin 180.1-180.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

on iki ildən on beş illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.65. 181-ci maddə üzrə:

1.65.1. 181.1-ci maddənin sanksiyasında "üç" sözü "dörd" sözü ilə əvəz edilsin;

1.65.2. 181.2.4-cü maddədə "zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla" sözləri "xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə" sözləri ilə əvəz edilsin;

1.65.3. 181.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 181.1 və ya 181.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.65.4. 181.3.4-cü maddə ləğv edilsin və müvafiq olaraq 181.3.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.65.5. aşağıdakı məzmunda 181.4-cü maddə əlavə edilsin:

"181.4. Bu Məcəllənin 181.1-181.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə -

on dörd ildən on səkkiz illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.66. 182-ci maddə üzrə:

1.66.1. 182.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 182.1 və ya 182.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.66.2. 182.3.4-cü maddə ləğv edilsin və müvafiq olaraq 182.3.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.66.3. aşağıdakı məzmunda 182.4-cü maddə əlavə edilsin:

"182.4. Bu Məcəllənin 182.1-182.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə -

on üç ildən on yeddi illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.67. 183.1-ci maddənin sanksiyasında "səkkiz" sözü "yeddi" sözü ilə əvəz edilsin;

1.68. 184-cü maddə ləğv edilsin;

1.69. 185-ci maddə üzrə:

1.69.1. 185.1-ci maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "iki illədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.69.2. 185.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç illədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.69.3. aşağıdakı məzmunda 185.4-cü maddə əlavə edilsin:

"185.4. Bu Məcəllənin 185.1-185.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

on ildən on iki illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.70. 186-cı maddə üzrə:

1.70.1. 186.1-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki illədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.70.2. aşağıdakı məzmunda 186.3-cü maddə əlavə edilsin:

"186.3. Bu Məcəllənin 186.1 və 186.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

yeddi ildən on illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.71. 187-ci maddə üzrə:

1.71.1. 187.1-ci maddənin dispozisiyasında "ehtiyatsızlıqdan" sözü "odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma üzündən" sözləri ilə əvəz edilsin;

1.71.2. 187.1-ci maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.71.3. 187.2-ci maddənin dispozisiyasından "odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma üzündən baş verdikdə və ya" sözləri çıxarılsın;

1.71.4. 187.2-ci maddənin sanksiyasında "altı ayadək" sözləri "bir illədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir illədək" sözləri ilə əvəz edilsin;

1.71.5. aşağıdakı məzmunda 187.4-cü maddə əlavə edilsin:

"187.4. Bu Məcəllənin 187.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.71.6. "Qeyd" hissəsi ləğv edilsin;

1.72. 189-cu maddə ləğv edilsin;

1.73. 189-1-ci maddə üzrə:

1.73.1. 189-1.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.73.2. 189-1.2-ci və 189-1.3-cü maddələrin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.73.3. aşağıdakı məzmunda 189-1.2-1-ci maddə əlavə edilsin:

"189-1.2-1. Bu Məcəllənin 189-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.73.4. 189-1.3-cü və 189-1.4-cü maddələrin dispozisiyasında "189-1.1 və ya 189-1.2-ci" sözləri "189-1.1-ci, 189-1.2-ci və ya 189-1.2-1-ci" sözləri ilə əvəz edilsin;

1.73.5. 189-1.4-cü maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.73.6. "Qeyd" hissəsi ləğv edilsin;

1.74. 190-cı maddənin "Qeyd" hissəsində "192.2.1, 192.2.2, 192-1.3.2, 193.2.1, 193.2.2," rəqəmləri "192-1.3.2," rəqəmləri ilə əvəz edilsin, "artıq olan məbləğ" sözlərindən sonra ", 192.2.1, 192.2.2, 193.2.1 və 193.2.2-ci maddələrində "külli miqdar" dedikdə yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 192.3.1, 192.3.2, 193.3.1 və 193.3.2-ci maddələrində "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ" sözləri əlavə edilsin;

1.75. 192-ci maddə üzrə:

1.75.1. 192.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.75.2. 192.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.75.3. aşağıdakı məzmunda 192.3-cü maddə əlavə edilsin:

"192.3. Bu Məcəllənin 192.1 və 192.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

192.3.1. xüsusilə külli miqdarda ziyan vurduqda;

192.3.2. xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

1.75.4. "Qeyd" hissəsi ləğv edilsin;

1.76. 193-cü maddə üzrə:

1.76.1. 193.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.76.2. 193.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.76.3. aşağıdakı məzmunda 193.3-cü maddə əlavə edilsin:

"193.3. Bu Məcəllənin 193.1 və 193.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

193.3.1. xüsusilə külli miqdarda ziyan vurduqda;

193.3.2. xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

1.76.4. "Qeyd" hissəsi ləğv edilsin;

1.77. 194-cü maddə üzrə:

1.77.1. 194.1-ci maddənin sanksiyasında "cərimə" sözündən sonra "və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.77.2. 194.2.3-cü maddə ləğv edilsin;

1.78. 195-ci maddə üzrə:

1.78.1. 195.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.78.2. 195.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.79. 196-cı maddə üzrə:

1.79.1. 196.1-ci maddənin sanksiyasında "və ya üç" sözləri "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.79.2. 196.2-ci maddənin sanksiyasında "üç ildən" sözləri "bir ildən üç ilədək müddətə azadlığın

məhdudlaşdırılması və ya iki ildən" sözləri ilə əvəz edilsin;

1.80. 197-ci maddə üzrə:

1.80.1. 197.1-ci maddənin dispozisiyasından "təkrar törədildikdə və ya" sözləri çıxarılsın;

1.80.2. 197.1-ci maddənin sanksiyasında "bir" sözündən sonra "ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir" sözləri əlavə edilsin;

1.80.3. 197.2-ci maddənin sanksiyasında "üç ilədək" sözlərindən sonra "müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri əlavə edilsin;

1.81. 198.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.82. 200-cü maddə üzrə:

1.82.1. 200.3-cü maddənin sanksiyasında "üç" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.82.2. "Qeyd" hissəsində "yüz" sözündən əvvəl "üç" sözü əlavə edilsin;

1.83. 200-1.1-ci maddə üzrə:

1.83.1. 200-1.1-ci maddənin sanksiyasına "cərimə və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.83.2. 200-1.2-ci maddənin sanksiyasına "edilməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.84. 201.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.85. 202-1.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.86. 202-2.1-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.87. 203-1.1-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.88. 204.2-ci maddədən "və ya əvvəllər saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satmağa görə məhkum olunmuş şəxs tərəfindən" sözləri çıxarılsın;

1.89. 206.2-ci maddədə "psixotrop maddələrin" sözlərindən sonra "və ya onların prekursorlarının" sözləri əlavə edilsin;

1.90. 208.1-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.91. 209-cu maddə üzrə:

1.91.1. aşağıdakı məzmunda 209.3-cü maddə əlavə edilsin:

"209.3. Bu Məcəllənin 209.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

cinayət nəticəsində vurulmuş ziyanın dörd mislindən beş mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.91.2. "Qeyd" hissəsinin 2-ci bəndi ləğv edilsin, müvafiq olaraq 1-ci bəndindən "1" rəqəmi çıxarılsın və həmin bənddə "artıq olan" sözləri "yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləği, "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan" sözləri ilə əvəz edilsin;

1.92. 211-ci maddə üzrə:

1.92.1. 211.1-ci maddənin sanksiyasında "eyni" sözü "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək" sözləri ilə əvəz edilsin;

1.92.2. 211.2-ci maddənin sanksiyasında "iki ildən dörd" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.93. 212.2-ci maddənin sanksiyasında "üç ilədək" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

1.94. 213-cü maddə üzrə:

1.94.1. 213.2-ci maddənin sanksiyasında "yeddi" sözü "beş" sözü ilə əvəz edilsin;

1.94.2. aşağıdakı məzmunda 213.3-cü maddə əlavə edilsin:

"213.3. Bu Məcəllənin 213.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

1.94.3. "Qeyd" hissəsinin birinci bəndində "artıq olan" sözləri "yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan" sözləri ilə əvəz edilsin;

1.94.4. "Qeyd" hissəsinin 2-ci bəndi ləğv edilsin və müvafiq olaraq 1-ci bəndindən "1" rəqəmi çıxarılsın;

1.95. 213-2-ci maddənin sanksiyasında "bir ildən üç" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.96. 213-3.2-ci maddənin sanksiyasında "bir ildən üç" sözləri "iki ilədək müddətə azadlığın məh-

dudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.97. 221-ci maddə üzrə:

1.97.1. 221.1-ci maddənin dispozisiyasında "vətəndaşlar" sözü "şəxslər" sözü ilə əvəz edilsin;

1.97.2. 221.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"min manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.97.3. 221.2-ci maddənin sanksiyasında "beş" sözü "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən dörd" sözləri ilə əvəz edilsin;

1.97.4. 221.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"221.3. Bu Məcəllənin 221.1-ci və ya 221.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda -

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.98. 222-1-ci maddə üzrə:

1.98.1. 222-1.1-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.98.2. 222-1.2-ci maddənin sanksiyasında "bir ildən üç" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.99. 223.1-ci maddənin sanksiyasında "edilməməklə üç" sözləri "edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.100. 224-2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.101. 225.1-ci maddənin sanksiyasında "edilməməklə üç" sözləri "edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

1.102. 228-ci maddə üzrə:

1.102. 1. 228.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.102.2. 228.4-cü maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.103. 230-cu maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.104. 231-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.105. 233-cü maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.106. 234-cü maddə üzrə:

1.106.1. 234.1-ci maddənin dispozisiyasında "əldə etmə və ya saxlama" sözləri "əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma" sözləri ilə əvəz edilsin;

1.106.2. 234.1-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.106.3. aşağıdakı məzmunda 234.3-1-ci maddə əlavə edilsin:

"234.3-1. Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə bu Məcəllənin 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində yaxud həbs yerlərində törətmə -

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.106.4. 234.5-ci maddənin sanksiyasında "edilməklə" sözündən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.107. 235.4.4-cü maddə ləğv edilsin və müvafiq olaraq 235.4.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

1.108. 236.1-ci maddənin sanksiyasında "iki" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.109. 237.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.110. 239-cu maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.111. 247-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.112. 248-ci maddə üzrə:

1.112.1. 248.1-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

1.112.2. 248.2-ci maddənin sanksiyasında "beş" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.113. 249-cu maddə üzrə:

1.113.1. 249.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.113.2. 249.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.114. 250-ci maddə üzrə:

1.114. 1. 250.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.114. 2. 250.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.115. 251-ci maddə üzrə:

1.115.1. 251.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.115.2. 251.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.116. 252-ci maddə üzrə:

1.116. 1. 252.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.116. 2. 252.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.117. 253-cü maddə üzrə:

1.117.1. 253.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.117.2. 253.2-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.118. 254-cü maddə üzrə:

1.118.1. 254.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.118.2. 254.2-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

1.119. 255-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.120. 256-cı maddə üzrə:

1.120.1. 256.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.120.2. 256.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.120.3. 256.3-cü maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.121. 257-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.122. 258-ci maddə üzrə:

1.122.1. 258.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.122.2. 258.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.122.3. 258.3-cü maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.123. 259-cu maddə üzrə:

1.123.1. 259.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.123.2. 259.2-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.123.3. 259.3-cü maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin və "iki ildən beş ilədək" sözləri "üç ildən altı ilədək" sözləri ilə əvəz edilsin;

1.124. 260-cı maddə üzrə:

1.124.1. 260.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.124.2. 260.1-1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.124.3. 260.2-ci maddənin sanksiyasında

"edilməməklə" sözündən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.125. 261-ci maddənin sanksiyasında "işləri ilə" sözləri "işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

1.126. 262-ci maddə üzrə:

1.126.1. 262.1-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri" sözləri "beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

1.126.2. 262.2-ci maddənin sanksiyasında "iki" sözündən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə" sözləri əlavə edilsin;

1.126.3. 262.3-cü maddənin sanksiyasında "beş" sözündən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə" sözləri əlavə edilsin;

1.127. 263-cü maddə üzrə:

1.127.1. 263.1-ci maddənin sanksiyasında "islah işləri" sözlərindən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.127.2. 263.1-1-ci maddənin sanksiyasında "məhrum edilməklə" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.127.3. "Qeyd" hissəsi üzrə:

1.127.3.1. mətni 1-ci bənd hesab edilsin və həmin bənddə "maddədə" sözü "Məcəllənin 263.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.127.3.2. aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

"2. Bu Məcəllənin 263.1 və ya 263.1-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Bu halda şəxsin əməllərində inzibati xəta tərkibinin əlamətləri olduqda o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir.";

1.128. 264-cü maddənin sanksiyasında "edilməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.129. 268.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.130. 269-cu maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.131. 285-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.132. 286.3-cü maddənin sanksiyasında "edilməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.133. 292.1-ci maddənin sanksiyasında "iki" sözündən sonra "ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri əlavə edilsin;

1.134. 294.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.135. 296.2-ci maddənin sanksiyasında "üç ildən səkkiz" sözləri "iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş" sözləri ilə əvəz edilsin;

1.136. 297.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.137. 302.3-cü maddənin sanksiyasında "müddətə" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə" sözləri əlavə edilsin;

1.138. 306-cı maddə üzrə:

1.138.1. 306.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.138.2. 306.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.138.3. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini məhkəmə tərəfindən hökm çıxarılanadək tam icra etdikdə cinayət məsuliyyətindən azad edilir.";

1.139. 308.2-ci maddənin sanksiyasında "səkkiz" sözü "yeddi" sözü ilə əvəz edilsin;

1.140. 309.2-ci maddənin sanksiyasında "yeddi" sözü "səkkiz" sözü ilə əvəz edilsin;

1.141. 314-cü maddə üzrə:

1.141.1. 314.1-ci maddənin sanksiyasında "islah işləri" sözlərindən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.141.2. 314.2-ci maddənin sanksiyasında "beş" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.142. 319.1-ci maddənin sanksiyasında "müddətə" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə" sözləri əlavə edilsin;

1.143. 324-cü maddənin sanksiyasında "bir" sözündən əvvəl "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

1.144. 326-cı maddə üzrə:

1.144.1. 326-cı maddənin adında, 326.1 və 326.2-ci maddələrin dispozisiyalarında "oğurlama" sözü "talama" sözü ilə əvəz edilsin;

1.144.2. 326.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanunun azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı müddəaları həmin cəzanın icrası və elektron nəzarət vasitələrinin tətbiq edilməsi qaydalarının müəyyən edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir.

2.2. Bu Qanunun narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etməyə dair müddəaları müvafiq icra hakimiyyəti orqanının narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən qüvvəyə minir.

2.3. Bu Qanunun digər müddəaları 2017-ci il dekabrın 1-dən qüvvəyə minir.

2.4. Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə görə bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Onlar, habelə bu Qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

2.5. Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkib qurtarmamış şəxslərin məhkum edildiyi cinayətə görə bu Qanunla daha yüngül sanksiya tətbiq edilməsi nəzərdə tutulmuşdursa, həmin şəxslərin cəza müddətləri bu Qanuna əsasən tətbiq edilməli olan sanksiyanın yuxarı həddindən çox olduğu halda cəza müddətləri həmin həddə qədər azaldılır.

2.6. Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən və ya cəzasını çəkmiş, lakin məhkumluğu olan şəxslərin vəziyyəti bu Qanunla yaxşılaşdırılırsa, həmin məsələlərə, habelə bu Qanunun 2.4 və 2.5-ci maddələrində nəzərdə tutulmuş məsələlərə hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında baxılır.

2.7. Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə dair məhkəmələrin, ibtidai istintaq və ya təhqiqat orqanlarının icraatında olan cinayət işləri və materiallara əməlin cinayət olmasını aradan qaldıran yeni qanunun qüvvəyə minməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilmə əsasları ilə xitam verilir və ya cinayət təqibinin başlanması rədd edilir və bu əməllərin inzibati məsuliyyətə səbəb olması məsələsi araşdırılır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 oktyabr 2017-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 9, maddə 1559, N

10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 28.4.3 və 28.4.4-cü maddələrdə "səkkiz" sözü "üç" sözü ilə əvəz edilsin;

1.2. 38.1-ci maddədə "pozulmasına" sözündən sonra ", xırda talamaya" sözləri əlavə edilsin;

1.3. 39-cu maddənin mətni 39.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 39.2-ci maddə əlavə edilsin:

"39.2. Bu Məcəllənin 227-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat zamanı inzibati xəta törətmiş şəxs vurulmuş ziyanı tamamilə ödədikdə və zərər çəkmiş şəxslə barışdıqda inzibati iş üzrə icraata xitam verilir.";

1.4. 53.0.9-cu maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 53.0.10-cu maddə əlavə edilsin:

"53.0.10. bu Məcəllənin 227-ci maddəsində nəzərdə tutulan inzibati xətanı törətmiş şəxs vurulmuş ziyanı tamamilə ödədikdə və zərərçəkmiş şəxslə barışdıqda.";

1.5. 54.2-ci maddədə "445-1," rəqəmlərindən sonra "528-1.3," rəqəmləri əlavə edilsin;

1.6. 102.1-ci maddədə "bu Məcəllənin" sözlərindən sonra "227-ci," sözləri əlavə edilsin;

1.7. 154-cü maddə üzrə:

1.7.1. 154.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İctimai işlər növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

1.7.2. aşağıdakı məzmunda 154.1-1 və 154.1-2-ci maddələr əlavə edilsin:

"154.1-1. Müvafiq icra hakimiyyəti orqanları müvafiq inzibati-ərazi vahidi üzrə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı növbəti ay başlayanadək müvafiq icra hakimiyyəti orqanına göndərir.

154.1-2. İcra məmuru barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxsə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısındakı yerlərdən birində işləmək üçün göndəriş verir. İctimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı hər hansı məlumat tələb edildikdə icra məmuru müvafiq icra hakimiyyəti orqanına bu barədə sorğu verir. Sorğuya beş iş günündən gec olmayaraq cavab verilməlidir.";

1.7.3. 154.3-cü maddədə "müvafiq icra hakimiyyəti orqanı ilə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını razılaşdırır" sözləri "ayda iki dəfədən az olmayaraq şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir, tənbehin bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi üçün digər tədbirləri görür" sözləri ilə əvəz edilsin;

1.7.4. 154.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"154.9. İşəgötürən ictimai işlərin həyata keçirilməsi üçün mövcud olan yerlər barədə müvafiq icra hakimiyyəti orqanına düzgün və tam məlumat verir, şəxs ictimai işlərin həyata keçiriləcəyi yerdə qəbul edilərək ictimai işə təhkim edildikdə, onun tərəfindən ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlini tərtib edərək üç gündən gec olmayaraq icra məmuruna göndərir, barəsində bu tənbeh növü tətbiq edilən şəxslər üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edir, onların işlədikləri saatların uçotunu aparır və ictimai işləri yerinə yetirməkdən boyun qaçırma halları barədə dərhal icra məmuruna məlumat verir.";

1.8. 227-ci maddə üzrə:

1.8.1. sanksiyada "iki yüz manatdan iki yüz əlli manatadək məbləğdə cərimə edilir" sözləri "yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər" sözləri ilə, "iki ayadək" sözləri "üç ayadək" sözləri ilə əvəz edilsin;

1.8.2. "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Qeyd: Bu Məcəllənin 227-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.";

1.9. 227-1-ci maddə ləğv edilsin;

1.10. 360-cı maddə üzrə:

1.10.1. maddənin dispozisiyasından "az miqdarda" sözləri çıxarılsın;

1.10.2. maddənin "Qeyd" hissəsi ləğv edilsin;

1.11. aşağıdakı məzmunda 528-1-ci maddə əlavə

edilsin:

"Maddə 528-1. İctimai işlər növündə cəzanın və ya inzibati tənbehin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsi

528-1.1. İctimai işlər növündə cəzanın və ya inzibati tənbehin həyata keçiriləcəyi yerlərinin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı vaxtında müvafiq icra hakimiyyəti orqanına göndərilməməsinə, yaxud ictimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı sorğulara vaxtında cavab verilməməsinə görə -

vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

528-1.2. İctimai işlər növündə cəzanın və ya inzibati tənbehin icra edildiyi yerdə işəgötürən tərəfindən şəxs üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edilməməsinə, yaxud işlədiyi saatların uçotunun aparılmamasına və ya düzgün aparılmamasına, şəxsin ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlinin tərtib edilməməsinə və ya bu cədvəlin icra məmuruna vaxtında göndərilməməsinə, habelə ictimai işlərin yerinə yetirilməsindən boyun qaçırma halları barədə icra məmuruna dərhal məlumat verilməməsinə görə -

vəzifəli şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir.

528-1.3. İcra məmuru tərəfindən ayda iki dəfədən az olmayaraq şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.".

Maddə 2. Bu Qanun 2017-ci il dekabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 oktyabr 2017-ci il*

## ”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddələr 1034, 1305) 5-ci maddəsinin ikinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci cümlədə "Kassasiya" sözü "İnzibati-iqtisadi məhkəmələrin iqtisadi mübahisələrlə bağlı qərarları, habelə kassasiya" sözləri ilə əvəz edilsin.

2. İkinci cümlədə "Bu qərarlarla" sözləri "Kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları ilə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 oktyabr 2017-ci il*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.0.11-ci maddədən "təkmil sertifikata malik" sözləri çıxarılsın.

2. 2.0.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.0.15-ci və 2.0.16-cı maddələr əlavə edilsin:

"2.0.15. xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyət - əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, habelə xarici ölkədə dövlət qeydiyyatına alınmış hüquqi şəxs tərəfindən təsis edilən məhdud məsuliyyətli cəmiyyətdir;

2.0.16. xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı - əcnəbi və vətəndaşlığı olmayan şəxsə məxsus gücləndirilmiş elektron imza ilə təsdiq edilən və müvafiq icra hakimiyyəti orqanına elektron qaydada təqdim edilən ərizə və ona əlavə edilən sənədlər əsasında xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin (yenidən təşkil nəticəsində yaranan məhdud məsuliyyətli cəmiyyət istisna olmaqla) dövlət qeydiyyatıdır.".

3. 4.3-cü maddəyə "yerli" sözündən sonra "və ya xarici" sözləri əlavə edilsin.

4. 7.1.2-ci maddə ləğv edilsin.

5. 7.2-ci maddədə "Azərbaycan Respublikasının ərazisində daimi yaşayış hüququ əldə etmiş əcnəbilər" sözləri "Əcnəbilər" sözü ilə əvəz edilsin.

6. 7-1-ci maddənin birinci cümləsinə "qeydiyyatı" sözündən sonra ", habelə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı" sözləri əlavə edilsin.

7. Aşağıdakı məzmunda 7-2-ci maddə əlavə edilsin:

"Maddə 7-2. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı

7-2.1. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün əcnəbi və ya vətəndaşlığı olmayan şəxs müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə formasını dolduraraq gücləndirilmiş elektron imza ilə təsdiq edir.

7-2.2. Elektron dövlət qeydiyyatı zamanı təsisçi (təsisçilər) fəaliyyət sahəsi barədə məlumatı bəyan edir, özü tərəfindən daxil edilmiş məlumatlara əsasən proqram təminatı tərəfindən hazırlanmış nizamnamə ilə real vaxt rejimində tanış olur və onu gücləndirilmiş elektron imza ilə təsdiq edir.

7-2.3. Elektron dövlət qeydiyyatı zamanı xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin Azərbaycan Respublikasında hüquqi ünvanını təsdiq edən sənəd Azərbaycan dilinə tərcümə edilmiş nüsxəsi ilə birlikdə skan edilərək ərizəyə əlavə olunur.

7-2.4. Elektron dövlət qeydiyyatı zamanı ərizənin qəbul edilməsi barədə forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən təsdiqetmə bildirişi müraciət edənin elektron ünvanına göndərilir. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alındığı gün dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə onun elektron ünvanına göndərilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 oktyabr 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**"İcra haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Rövşən İsmayılov, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimi İkram Şirinov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Qəmərlinin, ekspert Bakı Dövlət Universitetinin Mülki proses və kommersiya hüququ kafedrasının dosent əvəzi, hüquq üzrə fəlsəfə doktoru Əsmər Əliyevanın, mütəxəssis Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra baş idarəsinin rəis müavini, ədliyyə müşaviri Fərid Əfəndiyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "İcra haqqında" Qanun) 20-ci maddəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli Qanunu ilə "İcra haqqında" Qanunun 20-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən icra sənədi üzrə icraata xitam verilməsinin yeni qaydası müəyyən olunmuşdur. Bu qaydaya görə, icra sənədi üzrə icraata xitam verilməsi icra məmurunun səlahiyyətlərinə aid edilmişdir.

"İcra haqqında" Qanunun 20.5-ci maddəsində göstərilir ki, tərəflər və icra sənədini vermiş digər

orqan qərarın onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində həmin qərardan müvafiq məhkəməyə şikayət verə bilərlər.

Müraciətedən həmin maddədə nəzərdə tutulan "müvafiq məhkəmə" ifadəsinin təcrübədə qeyri-müəyyənlik yaratdığını qeyd etmişdir. Belə ki, "İcra haqqında" Qanuna edilən dəyişikliklərin qüvvəyə minməsindən sonra icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarından verilmiş şikayətlərə inzibati-iqtisadi və ya ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən baxılmalı olması məsələsi məhkəmələr arasında fikir müxtəlifliyinə səbəb olur.

Göstərilənlərə əsasən, Bakı Apellyasiya Məhkəməsi "İcra haqqında" Qanunda icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarından verilmiş şikayətlərə hansı məhkəmədə baxılmalı olması məsələsinə aydınlıq gətirilməsini Konstitusiya Məhkəməsindən xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60-cı maddəsinin I və II hissələrinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 6-cı maddəsinə əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Məhkəmə müdafiəsi hüququnun tam həcmdə həyata keçirilməsi və pozulmuş hüquqların ədalət mühakiməsinin əsas prinsiplərinin tələblərinə cavab verən şəkildə bərpa edilməsi üçün qanunvericilikdə digər təminatlar da nəzərdə tutulmuşdur.

Həmin təminatlardan biri Konstitusiyanın 62-ci maddəsində təsbit edilmiş hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququdur. Bu normada qeyd edilən "qanunla müəyyən edilmiş məhkəmə" müddəası işlərin aidiyyət qaydaları, qanuni məhkəmə tərkibinin mövcudluğu və s. subyektiv elementləri ehtiva edir.

Qanunvericilikdə mübahisələrin məhkəmə aidiyyəti məsələsinin aydın və dəqiq göstərilməsi insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə təminatı baxımından olduqca əhəmiyyətlidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, məhkəmə aidiyyəti ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəxsin hüquqlarının və qanuni maraqlarının prosessual təminatlarına zəmanət verən şərtlərdən biridir və qanunla dəqiq müəyyən edilməlidir. Əks təqdirdə bu və ya digər işin hansı məhkəmə icraatı qaydasında baxılması ilə bağlı qeyri-müəyyənlik yaranmış olar. Belə qeyri-müəyyənlik işə məhkəmə tərəfindən ağlabatan müddətdə baxılmasında çətinlik yarada, son nəticədə şəxsin pozulmuş hüquqlarının bərpa edilməsini qeyri-mümkün edə bilər (Konstitusiya Məhkəməsi Plenumunun "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.1 və 2.0.2-ci maddələrinin şərh edilməsinə dair " 6 oktyabr 2012-ci il tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında hər kəsin hüquq və qanuni maraqlarının qorunmasında məhkəmə aidiyyətinin dəqiq müəyyən edilməsinin əhəmiyyətini vurğulamaqla yanaşı, bu qaydalara

uyğun olaraq qəbul edilən qərarların icrasının ümumilikdə məhkəmə müdafiəsi hüququnun tərkib hissəsi olmasını da xüsusilə qeyd etmişdir.

Belə ki, Konstitusiya Məhkəməsinin Plenumu "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7, 10, 24 və 26-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin bəzi müddəaları baxımından şərh edilməsinə dair" 2 sentyabr 2015-ci il tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, məhkəmə müdafiəsi hüququ bir tərəfdən hər kəsin pozulmuş hüquqlarının və azadlıqlarının bərpası məqsədilə məhkəməyə müraciət etmək hüququnu, digər tərəfdən isə məhkəmələrin həmin müraciətlərə ağlabatan müddətdə baxmaq və ədalətli qərar qəbul edərək, onların vaxtında icra edilməsinə nəzarət etmək vəzifəsini müəyyən edir.

Bu məsələ ilə bağlı Konstitusiyanın 129-cu maddəsinin müddəaları böyük əhəmiyyətə malikdir. Həmin maddənin tələblərinə görə, məhkəmənin qəbul etdiyi qərarların icrası məcburidir. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Qanuni qüvvəyə minmiş məhkəmə aktlarının məcburiliyi onların bütün dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qanunla müəyyən edilmiş qaydada hər hansı haldan asılı olmayaraq icra edilməsini nəzərdə tutmaqla yanaşı, belə aktların qanunsuz və əsassız olması ehtimalları ilə bağlı icra məhdudiyyətlərinin yaradılmasını və maneələrin törədilməsini qadağan edir.

Məhkəmə qərarlarının icrasının məcburiliyi "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də əks olunmuşdur. Həmin maddəyə əsasən, məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respublikası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar çıxarırlar. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qanuni qüvvəyə minmiş bu qərarlar Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki hüquqi mövqelərinə istinadən bir daha qeyd edir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrası məhkəmə müdafiəsi hüququnun tərkib hissəsi olmaqla pozulmuş hüquqların bərpa olunmasında xüsusi önəm daşıyır. Belə ki, məhkəmə qərarının vaxtında və düzgün icra olunmaması bütövlükdə məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsini səmərəsiz və qəbul olunmuş qərarı əhəmiyyətsiz edər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrasına dair mövqeyinə görə, son və məcburi qüvvəyə malik olan məhkəmə qərarı tərəflərdən birinin ziyanına olaraq icra edilmədikdə, ədalətli məhkəmə araşdırması xəyali hüquqa çevrilir. Ağılasığmaz haldır ki, tərəflərə verilən ədalətli, açıq və ağlabatan müddətdə məhkəmə araşdırması kimi prosessual təminatları ətraflı təsvir edən Konvensiyanın 6-cı maddəsi məhkəmə qərarlarının icrasını təmin etməmiş olsun. Həmin maddənin yalnız məhkəməyə müraciət etmək hüququ və məhkəmə iclasının aparılmasına aid edilməsi iştirakçı dövlətlərin Konvensiyaya qoşularkən üzərlərinə götürdükləri öhdəliklərlə bağlı qəbuledilməz vəziyyət yarada bilər. Ona görə də hər hansı məhkəmə tərəfindən çıxarılmış qərarın icrası Konvensiyanın 6-cı maddəsinin mənasına görə "məhkəmə araşdırması"nın ayrılmaz tərkib hissəsi hesab edilməlidir (Hornsbi Yunanıstana qarşı iş üzrə 19 mart 1997-ci il tarixli Qərar).

Beləliklə, Konstitusiya və beynəlxalq-hüquqi aktların tələblərinə görə ədalət mühakiməsi məhkəmə qərarlarının effektiv icrası nəticəsində

hüquqların səmərəli bərpa olunmasını təmin etməlidir.

Məhz bu baxımdan qanunverici öz səlahiyyətləri çərçivəsində hər kəsin hüquq və azadlıqlarının qorunması məqsədilə qanuni qüvvəyə minmiş məhkəmə aktının icrası mərhələsində həmin aktın icra olunmasının təmin edilməsinə yönəlmiş qaydaları müəyyən edir və onları mütəmadi təkmilləşdirir.

Müraciətdə qaldırılan məsələ ilə əlaqədar, ilk növbədə, qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsinin Plenumu "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 87.2-ci və Azərbaycan Respublikası İnzibati-Prosessual Məcəlləsinin 2.1-ci maddələrinin şərh edilməsinə dair" 4 aprel 2012-ci il tarixli Qərarında göstərmişdir ki, məhkəmə qərarının icrası ilə əlaqədar icra məmurunun qərarından, hərəkətlərindən (hərəkətsizliyindən) irəli gələn mübahisələrə İnzibati-Prosessual Məcəllənin 2.1-ci maddəsinə uyğun olaraq inzibati icraat qaydasında inzibati-iqtisadi məhkəmələr tərəfindən baxılır.

Sonradan "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 16 oktyabr tarixli Qanunu ilə 87.1-ci maddəyə dəyişiklik edilmiş, icra sənədinin icra olunması ilə bağlı icra məmurunun hərəkətlərindən və ya hərəkətsizliyindən tələbkar və ya borclunun icra məmurunun olduğu yer üzrə inzibati-iqtisadi məhkəməyə şikayət verə bilməsi müəyyən edilmişdir. Lakin nəzərə alınmalıdır ki, Qanunun həmin maddəsinə dəyişiklik edilsə də, icraatın dayandırılması və ya ona xitam verilməsi məsələlərini tənzimləyən 21-ci maddəsinə dəyişiklik edilməmişdir.

"İcra haqqında" Qanunun 21-ci maddəsinin köhnə redaksiyasına görə, məhkəmələrin verdiyi icra sənədinə əsasən başlanmış icraat icra məmurunun olduğu yer üzrə məhkəmə tərəfindən, inzibati-iqtisadi məhkəmənin verdiyi icra sənədinə əsasən başlanmış icraat isə həmin inzibati-iqtisadi məhkəmə və ya icra məmurunun olduğu yer üzrə müvafiq inzibati-iqtisadi məhkəmə tərəfindən dayandırılır və ya ona xitam verilirdi.

"İcra haqqında" Qanunun 20-ci maddəsi 30 dekabr 2016-cı ildə yeni redaksiyada verilmiş və icra sənədi üzrə icraata xitam verilməsinin məhkəmələr tərəfindən deyil, icra məmuru tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bunu nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələyə aydınlıq gətirilməsi məqsədilə "İcra haqqında" Qanunun bəzi müddəalarının mülki prosessual qanunvericiliklə əlaqəli şəkildə təhlil edilməsini zəruri hesab edir.

Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - Mülki Prosessual Məcəllə) bir sıra normalarına əsaslanaraq hesab edir ki, qətnamə çıxarıldıqdan sonra həmin qətnaməni çıxaran hakimin üzərinə qoyulan bir sıra vəzifələr (məsələn, qətnamədəki yanlışlıqların və ya açıq hesab səhvlərinin düzəldilməsi (maddə 228), əlavə qətnamənin çıxarılması (maddə 229), qətnamənin izah edilməsi (maddə 230), qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi (maddə 231.1, 231.2), ödənilməli pul məbləğlərinin indeksasiyası (maddə 232) məhz qətnamənin səmərəli icrasını təmin etmək məqsədini daşıyır. Qeyd olunanlar, eyni zamanda, məhkəmənin qəbul etdiyi qətnamənin icrasına nəzarət funksiyasının həyata keçirilməsinə də xidmət edir.

Belə ki, "İcra haqqında" Qanunun 26-cı maddəsinə əsasən, icra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət icra qurumunun rəhbəri və məhkəmə tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir.

Mülki Prosessual Məcəllədə olduğu kimi, "İcra

haqqında" Qanunda da bu mövqedən çıxış edilərək qətnamənin icrasının təmin edilməsi və icra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət məqsədilə icra məmurunun icra sənədini vermiş məhkəməyə müraciət etməsi müəyyən edilmişdir. Məsələn, "İcra haqqında" Qanunun 14.1-ci maddəsinə əsasən, icra sənədində göstərilmiş tələblər aydın olmadıqda, icra məmuru həmin icra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin izah olunması barədə müvafiq məhkəməyə və ya digər orqana ərizə ilə müraciət etmək hüququna malikdir.

Konstitusiya Məhkəməsinin Plenumu "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7, 10, 24 və 26-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin bəzi müddəaları baxımından şərh edilməsinə dair" 2 sentyabr 2015-ci il tarixli Qərarında da bu mövqedən çıxış edərək qeyd etmişdir ki, məhkəmə aktı üzrə bir neçə borclu olduqda, eləcə də onların yaşadığı ərazi müxtəlif olduqda həmin aktı qəbul etmiş məhkəmə icra sənədini borcluların sayına uyğun və yaşadığı yer üzrə müvafiq icra qurumuna göndərməli və icra məmurunun icraata başlamaq haqqında qərarı vaxtında qəbul etməsinə nəzarət etməlidir.

İcra sənədini vermiş məhkəmənin icra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət etmək funksiyası, həmçinin "İcra haqqında" Qanunun 20-ci maddəsində nəzərdə tutulan icraata xitam verilməsinin əsasları və qaydalarından da irəli gəlir.

Belə ki, "İcra haqqında" Qanunun 20.2-ci maddəsinə əsasən, icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmuru tərəfindən əsaslandırılmış qərar qəbul edilir. Həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və onun surəti 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana göndərilir.

Göründüyü kimi, qanunverici icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmuru tərəfindən qəbul edilmiş əsaslandırılmış qərarın məhz icra sənədini vermiş məhkəməyə göndərilməsini müəyyən etmişdir.

Eyni zamanda, "İcra haqqında" Qanunun 20.4-cü maddəsində müəyyən olunmuşdur ki, icra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarı daxil olduqdan sonra məhkəmə 10 gün müddətində həmin qərarın bu Qanunun tələblərinin pozulmaqla qəbul edilməsini müəyyən edərsə həmin qərarı ləğv edir.

İcra sənədi üzrə icraata xitam verilməsi barədə qərarın icra sənədini vermiş məhkəməyə göndərilməsi və bu məhkəməyə öz təşəbbüsü ilə həmin qərarın qanunvericiliyin tələblərinə uyğun olub-olmamasını yoxlamaq səlahiyyətinin verilməsi son nəticədə işə baxmış məhkəmənin qərarın icrasına nəzarət etməsini təmin etmək məqsədi daşıyır.

Göründüyü kimi, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli Qanunu ilə "İcra haqqında" Qanuna edilmiş dəyişikliklərə əsasən, icra sənədi üzrə icraata xitam verilməsi səlahiyyəti məhkəmələrdən alınaraq icra qurumuna verilsə də, qanunverici məhkəməyə öz təşəbbüsü ilə icra məmurunun icraata xitam verilməsi barədə qərarının qanuniliyini yoxlamaq səlahiyyəti vermişdir.

Eyni zamanda, tərəflər və icra sənədini vermiş digər orqan qərarın onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində həmin qərardan müvafiq məhkəməyə şikayət verə bilərlər ("İcra haqqında" Qanunun 20.5-ci maddəsi).

Konstitusiya Məhkəməsinin Plenumu icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarın 3 gün müddətində icra sənədini vermiş

məhkəməyə göndərildiyini və həmin məhkəməyə bu qərarın qanuniliyini yoxlamaq səlahiyyətinin verildiyini, həmçinin "İcra haqqında" Qanunun 20.2, 20.4 və 20.5-ci maddələrinin sistemli əlaqədə və normativ vəhdətdə olduğunu nəzərə alaraq, tərəflərin də həmin qərardan məhz icra sənədini vermiş məhkəməyə şikayət verməsini qanuna uyğun hesab edir. Əks hal icra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarı ilə bağlı müxtəlif məhkəmə qərarlarının qəbul edilməsinə səbəb ola bilər.

Bununla yanaşı, qeyd olunmalıdır ki, "İcra haqqında" Qanunun 20.5-ci maddəsində yalnız məhkəmələr tərəfindən verilmiş icra sənədi üzrə deyil, həmçinin digər orqanlar tərəfindən verilmiş icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarından şikayətin verilməsi nəzərdə tutulmuşdur. Məhz bu baxımdan qanunverici həmin maddədə "müvafiq məhkəmə" ifadəsindən istifadə etmişdir. "Müvafiq məhkəmə" ifadəsinə aydınlıq gətirərək Konstitusiya Məhkəməsinin Plenumu belə hesab edir ki, məhkəmə tərəfindən verilmiş icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarından tərəflər həmin icra sənədini vermiş məhkəməyə, digər orqanların verdiyi icra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarından isə məntiqi olaraq icra məmurunun olduğu yer üzrə məhkəməyə şikayət verə bilərlər.

Beləliklə, qanunda edilən bu dəyişikliklər məhkəmə qərarlarının vaxtında və düzgün icrasını təmin etmək məqsədi daşıyır. İcra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarı həmin mülki, iqtisadi və inzibati işin bilavasitə davamıdır və icra məmurunun bu qərarından şikayətə icra sənədini vermiş məhkəmə tərəfindən baxılması hüquqi müdafiə vasitələrinin əlçatanlığına və səmərəliliyinə xidmət edir.

Yuxarıda göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir:

- "İcra haqqında" Qanunun 20.5-ci maddəsinə görə, tərəflər icra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarından icra sənədini vermiş məhkəməyə şikayət verə bilərlər;
- icra sənədi digər orqanlar tərəfindən verildikdə, icra məmurunun icraata xitam verilməsi barədə qərarından icra məmurunun olduğu yer üzrə məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsinə görə, tərəflər icra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarından icra sənədini vermiş məhkəməyə şikayət verə bilərlər.

İcra sənədi digər orqanlar tərəfindən verildikdə, icra məmurunun icraata xitam verilməsi barədə qərarından icra məmurunun olduğu yer üzrə məhkəməyə şikayət verilə bilər.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 10 oktyabr 2017-ci il*